MEHDİ FƏYYAZLI




# QASIMLI KƏNDİ

**MEHDİ FƏYYAZLI**

# QASIMLI KƏNDİ

**I kitab**

**BAKI – 2020**

**Redaktor: İldırım Şükürzadə**
**tədqiqatçı-tarixçi, AJB-nin üzvü**

***Məsləhətçilər:***
**Əhməd Muxtarov**
**Natiq Nuriyev**
**Elşən Babanlı**

Mehdi Afiq oğlu Fəyyazlı.
**Qasımlı kəndi (I kitab).**
Bakı, 2020. 132 səh. (şəkilli)

Kitabda Masallı rayonunun Qasımlı kəndinin tarixi, din adamları, müəllimləri, elm adamları, Böyük Vətən müharibəsi iştirakçıları, şəhidləri və digər sahənin ziyalıları haqda dolğun və ətraflı məlumatlar toplanmışdır.

**Qeyd:** Kitabda verilmiş məlumatlardan istifadə edildikdə mütləq müəllifə istinad edilməlidir.

**© "M.A.Fəyyazlı", 2020**

# TƏRTİBÇİDƏN

Hörmətli oxucular! Əlinizdə olan ***"Qasımlı kəndi"*** adlı bu kitabda Masallımızın gözəl guşələrindən biri olan Qasımlının tarixi, din adamları, müəllimləri, elm adamları, Böyük Vətən müharibəsi iştirakçıları, şəhidlərimiz və digər sahənin ziyalıları haqda dolğun və ətraflı məlumatlar verməyə çalışmışam. Hər hansı bir kitabın yazılması, ərsəyə gəlməsi o qədər də asan bir iş deyil. Bu haqda ingilis şairi və tənqidçisi Samuel Conson çox gözəl demişdir: ***"Bir tək kitab yazmaq üçün yarım kitabxana əsər oxunmalıdır."*** Consonun dediklərinə insanın eşitdiklərini və gördüklərini də əlavə etsək fikrimiz tam mənası ilə anlaşılmış olar.

Hakim Həsənov adına Qasımlı kənd tam orta məktəbində təhsil aldığım vaxtlardan, məndə belə bir sual yaranırdı: ***"Görəsən bu kəndin tarixi nə qədərdir? Bizdən əvvəl bu kənddə hansı ziyalılar yaşayıb? Kəndimizin adı niyə Qasımlı adlanır?*** Bəlkə də tariximizlə uşaqlıqdan daha çox maraqlandığım üçün bu suallar yaranırdı. Nəhayət, 2015-ci ildə belə bir qərara gəldim ki, kəndimizin tarixini araşdıram. Özüm Rusiyada yaşasam da, qəlbim hər zaman doğulub boya-başa çatdığım Qasımlı kəndilədir. Kitabda yazılmış məlumatların daha dəqiq olması üçün yaşlı nəslin nümayəndələrinin və ziyalılarımızın əziyyətini gözdən çıxartmaq olmaz.

Kitabda Qasımlı kəndinə və onun sakinlərinə aid tarixi fotoşəkillərin də yer alması çox vacib amillərdən biridir.

Mən hesab edirəm ki, Qasımlı haqda yazılmış sözü gedən məlumatların kitab halında çap olunması bu gün bizlərə, gələcəkdə isə davamçılarımıza çox gərəklidir.

Ümumiyyətlə, hesab edirəm ki, bu kitab həm gənclər, həm də yaşlılar üçün çox dəyərli məlumat mənbəyi olacaqdır.

**Mehdi FƏYYAZLI**


QASIMLI

# QASIMLININ TARİXİ




İndiki Qasımlı kəndinin tarixi 1746-1747-ci illərdə Səfəvi sülaləsindən olan Aslan Mirzənin Talış xanı Cəmaləddin xanın (Qara xan) himayəsinə sığınaraq bu ərazilərdə məskunlaşması ilə başlanır. Nadir şah Cavadda tacqoyma mərasimindən sonra Səfəvilər nəslinin yenidən hakimiyyətə gəlməsindən narahat olaraq onlara divan tutmaq qərarına gəlir. Xorasan mənbələrinə əsasən demək olar ki, Nadir şah Aslan Mirzənin, oğullarının, qardaşının və qardaşı oğullarının yaşamasından xəbər tutub 1746-cı ilin sonlarında onları öldürmək üçün sui-qəsd hazırlatdırır. Sui-qəsdin olacağını anlayan Aslan Mirzə kiçik qardaşının övladlarını

nökərləri ilə Talış xanının yanına yola salıb özü bir gün sonra üç oğlu ilə onların arxasınca Lənkərana yola düşür. Yolda sui-qəsdçilərlə rastlaşır. Sui-qəsd nəticəsində Aslan Mirzə sol qolundan yaralansa da, qaça bilir. Ancaq üç oğlu və kiçik qardaşı Toğrul Mirzənin böyük oğlu Əsədulla Mirzə öldürülür. Sui-qəsdçilər Nadir şahın qorxusundan gəlib bildirirlər ki, Aslan Mirzəni, onun 3 oğlunu qardaşı uşaqları ilə birlikdə qılıncdan keçirib öldürdük. Halbuki Aslanın 3 oğlunu və Əsədulla Mirzəni öldürsələr də özünü öldürə bilməmişlər. Yaşca çox uşaq olan, kiçik qardaşının oğulları **Qasım, İbrahim, Hüseyn** və **İsmayıl** sağ qala bilmişlər. **Nadir şahın** zülmündən qaçıb bir müddət Lənkəranda qalan Aslan Mirzə və Qardaşının dörd oğlu bu ərazilərə gəlirlər. **Qasımlı** və **Hüseynhacılı** kəndlərinin ərazisi Talış xanı **Cəmaləddin xan** (Qara xan) tərəfindən 1754-cü ildə bu qardaşlara bəxşiş verilmişdir. Əlverişli coğrafi mövqedə yerləşdiyi üçün 1760-1762-ci illərdə kəndə başqa ailələr də gəlmişdir. Hazırda Qasımlı kəndində **İsmayıllı, Yarəhmədli, Qarayusifli** və digər tayfaların nəslindən olanlar yaşayır.[1]

Qasımlı kəndi Yeddioymaq kənd inzibati ərazi dairəsinin tərkibindədir. **Yeddioymaq kənd inzibati ərazi dairəsi** İkinci Yeddioymaq kəndi mərkəz olmaqla **Birinci Yeddioymaq**, **İkinci Yeddioymaq** və **Qasımlı** kəndlərini əhatə edir.

[1]Məlumatları təqdim etdi: Şükürov Xalıq Heybət oğlu

## COĞRAFİ MÖVQEYİ: ƏRAZİ VƏ ƏHALİSİ

Masallı rayonunun yaşayış məntəqələrindən biri Qasımlı kəndidir. Kənd Masallı şəhərindən 7 kilometr aralıda yerləşir. Şimaldan **Birinci Yeddioymaq**, şərqdən **İkinci Yeddioymaq**, qərbdən **Hüseynhacılı**, cənub-şərqdən **Şıxlar** kəndləri ilə həmsərhəddir. Ərazisi 610 hektar, əhalisi 2300 nəfərdən çoxdur. Kənddə 500 təsərrüfat və 602 ev vardır. Qasımlı kəndində 1999-cu ildə 1987 nəfər, 2009-cu ildə isə 2257 nəfər yaşamışdır.[1]

## QASIMLI TOPONİMİ

Qasımlı patronim olub, **Qasım** şəxs adı və «lı» mənsubiyyət şəkilçisinin birləşməsindən yaranmışdır. Patronim yunanca tayfa, nəsil adından yaranan yer adı deməkdir. İlk olaraq Qasımlı tayfasının burada məskunlaşması nəticəsində yaşayış məntəqəsi Qasımlı adlandırılmışdır. Toponim Şahsevənlərin **Qaraqasımlı** tayfası ilə də əlaqələndirilir.

Hal-hazırda respublikamızda Qasımlı adında üç kənd vardır. Bu kəndlər müvafiq olaraq Ağdam, Masallı və Gədəbəy rayonlarında yerləşir. Qeyd edək ki, Masallı şəhəri yaxınlığında, Bakı-Astara dəmiryolunun üstündə kəndin adı ilə bağlı ***«Qasımlı stansiyası»*** adlanan dəmiryol stansiyası da vardır. Ölkəmiz müstəqillik qazandıqdan sonra «Qasımlı stansiyası»nın ərazisi Masallı şəhərinə birləşdirilmişdir.[2]

[1] Məlumatları təqdim etdi: Nuriyev Natiq Yaqub oğlu
[2] Məlumatları təqdim etdi: İldırım Şükürzadə


AZ.D.Y.Q.S.C.
QASIMLI
STANSİYASI


QASIMLI

# MƏNİM QASIMLI KƏNDİM

Sən doğmasan, əzizsən,
Gözəl xatirəmizsən.
Səni candan sevirəm,
Mənim Qasımlı kəndim.

Neçə igidlərin var,
Neçə şəhidlərin var.
Sənlə fəxr etmək olar,
Mənim Qasımlı kəndim.

Var alimin, ziyalın,
Var həkimin, ruhanin.
Var əmək veteranın,
Mənim Qasımlı kəndim.

Olsam da qəriblikdə,
Ayrı qalsam da səndən.
Sən daim qəlbimdəsən,
Mənim Qasımlı kəndim.[1]
19.04.2020

[1] Müəllif: Ümüdvar Rəhmanqızı













# İQTİSADİYYATI

Kənd əhalisinin əsas məşğuliyyəti əkinçilik və maldarlıqdır. Sovet dönəmində kənddə **N.K.Krupskaya** adına sovxoz fəaliyyət göstərmişdir. N.K.Krupskaya adına sovxoz **Qasımlı, Birinci** və **İkinci Yeddioymaq**, **Şıxlar** və **Təzəkənd** kəndlərini əhatə etmişdir. Sovxoz əsasən tərəvəzçilik üzrə ixtisaslaşmışdır. Sonralar Şıxlar və Təzəkənd kəndləri Krupskaya sovxozun tərkibindən çıxmışlar.

SSRİ-nin parçalanması ərəfəsində 1990-cı ildə Qasımlı kəndi də Krupskaya sovxozunun tərkibindən çıxaraq müstəqil təsərrüfat olmuşdur. Təsərrüfat əvvəl *«Qasımlı»* sovxozu, daha sonra isə «Qasımlı» istehsalat kooperativi adlanmışdır.

1996-cı ildə ölkədə keçirilən Aqrar islahata əsasən sovxoz, kolxoz və istehsalat kooperativləri ləğv edilərək, onların mülkiyyətində olan torpağlar kənd sakinlərinə pulsuz olaraq paybəlli torpaq sahəsi kimi paylanmışdır. Qasımlı kəndində adam başına 13 sot torpaq sahəsi düşmüşdür.

## SOSİAL OBYEKTLƏRİ

Qasımlı kəndində sosial obyektlərdən tam orta məktəb, həkim məntəqəsi, poçt, ATS, məscid, ictimai iaşə və digər obyektlər fəaliyyət göstərir.

Qasımlı kəndində bulaq və məscid memarlıq abidəsi sayılır. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 02 avqust 2001-ci il tarixli 132 saylı Qərarına əsasən Bulaq və Məscid müvafiq olaraq 4851 və 4894 invertar sayı ilə XIX əsrə aid yerli əhəmiyyətli memarlıq abidəsi kimi qeydə alı-naraq, dövlət mühafizəsinə götürülmüşdür.

# QASIMLI BƏLƏDİYYƏSİ




1999-cu il dekabrın 12-də respublikamızda ilk dəfə olaraq bələdiyyə seçkiləri keçirilmişdir. Yerli özünüidarəni həyata keçirən bələdiyyə seçkili orqan olub, səlahiyyət müddəti beş ildir. Seçkilərin nəticəsi olaraq 2000-ci ilin yanvar ayında ölkəmizin ayrı-ayrı yaşayış məntəqələri üzrə ümumilikdə 2700 bələdiyyə yaradılmışdır ki, həmin bələdiyyə-

lərdən biri də **Qasımlı bələdiyyəsi** olmuşdur. Qasımlı bələdiyyəsinə əhalinin sayı ilə əlaqədar 11 nəfər üzv seçilmişdir. Qasımlı bələdiyyəsi 2000-2010-cu illərdə fəaliyyət göstərmişdir. Bələdiyyələrin fəaliyyətini gücləndirmək üçün 2010-cu ildə kiçik bələdiyyələr ləğv edilərək iri bələdiyyələrə birləşdirilmişdir. Buna görə də Qasımlı bələdiyyəsinin də fəaliyyəti dayandırılaraq, o mərkəzi **İkinci Yeddioymaq** kəndi olmaqla **Yeddioymaq kənd bələdiyyəsinə** birləşdirilmişdir.

Qasımlı bələdiyyəsinin sədri (1999, 2004-cü illər I – II çağırış) **Rüzgar Cankişi oğlu Balayev**, bələdiyyə sədrinin müavini isə **Cəmiyağa Məmməd oğlu Həsənov** olmuşdur.



**Balayev Rüzgar Cankişi oğlu** 12 dekabr 1959-cu ildə Masallı rayonunun Qasımlı kəndində anadan olub. 1966-1976-cı illərdə Yeddioymaq kənd orta məktəbini bitirmişdir. 1977-1979-cu illərdə hərbi xidmətdə olmuşdur. 1981-1986-cı illərdə Azərbaycan Kənd Təsərrüfatının iqtisadiyyat fakültəsini bitirmişdir. 1986-1988-ci illərdə N.K.Krupskaya adına sovxozda baş iqtisadçı vəzifəsində işləmişdir. 1990-1992-ci illərdə “Qasımlı” kənd sovxozunda işini davam etdirmişdir. 1992-1993-cü illərdə həmən sovxozun direktoru

işləmişdir. 1994-1997-ci illərdə yerli aqrar İslahat komissiyasının sədri işləmişdir. 1997-1999-cu illərdə Birgə kəndli Fermer Təsərrüfatının başçısı işləmişdir.

2000-2009-cu illərdə Qasımlı kənd bələdiyyəsinin sədri vəzifəsində çalışmışdır. 2010-2020-ci illərdə Yeddioymaq bələdiyyəsinin sədir müavini vəzifəsini icra etmişdir.

2020-ci ilin mart ayında Yeddioymaq kənd bələdiyyəsinə sədr seçilmişdir. Hazırda həmin vəzifəni icra edir.

# QƏBİRİSTANLIQLAR



Qasımlı kəndində iki qəbiristanlıq vardır. Bu qəbiristanlıqlar kəndin **İsmayıllı** və **Qarayusifli** məhəllələrində yerləşir. Məhəllələrin adı ilə müvafiq olaraq İsmayıllı və Qarayusifli qəbiristanlıqları adlanır.

Yaşlı nəslin söylədiklərinə görə kənddə qəbiristanlığın ümumi tarixi təqribən 300 ilə yaxındır. İlk olaraq İsmayıllı, daha sonra isə Qarayusifli qəbiristanlığı yaradılmışdır. Ondan öncə kənd sakinləri ölülərini qonşu **Şıxlar** və **Qızılağac** kənd qəbiristanlıqlarında dəfn etmişlər.[1]

[1] Məlumatları və şəkilləri təqdim etdi: Nuriyev Natiq Yaqub oğlu






ALSANOVA

# QASIMLI KƏND MƏSCİDİ



Qasımlı mədrəsəsi 1800-cü ildə kəndin əsasını qoymuş **Qasım Mirzə Toğrul oğlu** tərəfindən tikilmişdir. Adı da ***Qasımın mədrəsəsi*** kimi tanınmışdır. O vaxta qədər kənd sakinləri qonşu **Şıxlar** və **Qızılağac** kəndlərindəki məscidlərdən istifadə edərək, ibadətlə məşğul olmuş və dini ayinləri icra etmişlər. Qasımlı mədrəsəsi 1918-ci ildə sökülmüş və yerində məscid inşa edilmişdir.[1]

Sovet dövründə digər məscidlər kimi Qasımlı məscidi də bağlanaraq, ondan kənddəki təsərrüfatın anbarı kimi istifadə olunmuşdur. Ölkəmiz müstəqillik qazandıqdan sonra məscid yenidən qapılarını dindarların üzünə açmışdır.

Bu məscid köhnə və eyni zamanda balaca olduğundan 1998-ci ildə sökülərək **kənd sakinlərinin**, o cümlədən xeyriyyəçilər **Kərbəlayı Əziz Abbas oğlu Qulamirzəyev**, **Hacı Heybət Şərif oğlu Şükürov** və **Hacı Akif Qaraş oğlu Qarayevin** vəsaiti hesabına yerində indiki məscid inşa olunmuşdur. Qırmızı kərpicdən hörülən və düzbucaqlı formada olan məscid hündürlüyü 40 sm olan səki üzərində yerləşir. Məscidin uzunluğu 21 metr, eni isə 10 metrdir. Fasadında iki qapı və 4 pəncərə vardır. Qapı və pəncərələr tağlı, pəncərələr həmçinin şəbəkəlidir. Minbəri, mehrabı və günbəzi vardır. Minbər dörd pilləlidir. Mehrab divarın içində yerləşir. Günbəzi güldəstə şəkilli olub, dördguşəlidir. Məscidin döşəməsi torpaqdan, qapı-pəncərələri, tavanı, dam örtüyünün konstruksiyası ağac materialından, dam örtüyü isə ilk əvvəl kirəmitdən olsa da, sonralar dəmir şiferlə əvəz olunmuşdur. Açıq eyvanı vardır.[2]

---

[1] Məlumatları təqdim etdi: Xalıq Şükürov

[2] Məlumatları və şəkilləri təqdim etdi: Nuriyev Natiq Yaqub oğlu

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 02 avqust 2001-ci il tarixli 132 saylı Qərarına əsasən Qasımlı kənd məscidi 4894 invertar sayı ilə XIX əsrə aid yerli əhəmiyyətli memarlıq abidəsi kimi qeydə alınaraq dövlət mühafizəsinə götürülmüşdür.





# QASIMLININ DİN ADAMLARI

Kəndimizin Molla Əhməd, Kərbəlayi Ağa Məhəmməd, Molla Heydər və digər din adamları olublar ki, vaxtı ilə İraqın Nəcəf şəhərində dini təhsil almışlar. Onlar haqda və eyni zamanda istər Rusiya İmperiyası dövründə, istərsə də sovet dövründə gizli yolla dini işləri yerinə yetirmiş ziyalılar haqda **Nuriyev Kərbəlayi Natiq Yaqub oğlundan** öyrəndiklərimi sizlərə təqdim edirəm.

**Molla Heydər Məhəmməd oğlu** 1860-cı ildə Lənkəran qəzasının, Qasımlı kəndində ruhani ailəsində anadan olub. Atası **Molla Məhəmməd** və babası **Molla Əhməd**, 25 il İraqın **Nəcəf** şəhərində dini təhsil almışlar. Molla Heydər 9 yaşında olarkən, İraqın Nəcəf şəhərinə gedir. Orada təxminən 1870-ci ildən 1895-ci ilə qədər təhsil alır. Sonra Lənkəran qəzasının Qasımlı kəndinə qayıdır. Atası Molla Məhəmməd ilə bərabər, Qasımın mədrəsəsində Azərbaycan türkcəsi, ərəb və fars dillərini tədris ediblər. Miladi tarixilə 1912-ci ildə, hicri tarixilə 1333-cü ildə Lənkəran qəzasının, Qasımlı kəndində vəfat edib. Ölümündən sonra onun Ərdəbildə olan tələbələri ona baş daşı qoymuşlar.[1]

Allah rəhmət eləsin!

[1] Məlumatları təqdim etdi: **Nuriyev Kərbəlayi Natiq Yaqub oğlu**

**Cavad Nuru oğlu** 1870-ci ildə Lənkəran qəzasının Qasımlı kəndində anadan olub. Dini təhsilini təxminən inqlabdan öncə 1895-ci ildə alıb. Yaxşı şagird olduğuna görə, ustadı **Molla Məhəmməd**, öz qızı **Leylanı** ona ərə verib. 6 övladları olub. 2 qız, 4 oğlan. Böyük oğlu **Musa**, 2-ci oğlu **İsa**, 3-cü oğlu **İbrahim**, 4-cü oğlu **Qubad** olub. Nurunun atası, **Qarakişi**, Qarakişinin atası, **Qarayusif** olub. Ona görə həmən nəsil **Qarayusifli** adlanır. Cavad Nuru oğlu dövrünün dini alimlərindən olub. 1923-cü ildə ürək xəstəliyindən vəfat edib. Allah rəhmət eləsin!

**Əlihəsənov Nəhmət Kərbəlayi Muxtar oğlu** 1889-cu ildə Qasımlı kəndində dünyaya gəlmişdir. Dini təhsilini Qasımlı mədrəsəsində almışdır. Digər dindarlar kimi o da, Rusiya İmperiyası və Sovet dövründə gizli şəkildə dini işləri yerinə yetirirmiş, oruc tutmuş, Qurani kərimi əzbər bilərmiş. Öz dövrünün sayılıb-seçilən nümunəvi ziyalılarından olmuşdur. Nəhmət kişinin 3 oğlu və 1 qızı olub. 1994-cü ilin 20 yanvar tarixində dünyasını dəyişib.[1]

Allah rəhmət eləsin.



[1] Məlumatları və şəkli təqdim etdi: Muxtarov Əhməd Ağabala oğlu



**Kərimov Rüstəm Manaf oğlu** 1891-ci ildə Lənkəran qəzasının Qasımlı kəndində anadan olmuşdur. Dini təhsilini **Molla Məhəmməd** tərəfindən yaradılmış mədrəsədə, **Molla Heydərdən** öyrənmişdir. Kəndimizin yaşlı nəslinin verdiyi məlumatlara əsasən demək olar ki, Molla Rüstəm Qurani-Kərimi əzbər bilərmiş və sovet hakimiyyəti dövründə gizli şəkildə dini işləri yerinə yetirərmiş. O, 1981-ci ildə Qasımlı kəndində dünyasını dəyişib. Qasımlı kənd qəbiristanlığında torpağa tapşırılıb.

Allah rəhmət eləsin.



**Nuriyev İbrahim Cavad oğlu** 1903-cü ildə Lənkəran qəzasının (indiki Masallı rayonu), Qasımlı kəndində ruhani ailəsində anadan olub. Dini təhsilini inqilabdan öncə Molla Məhəmməd tərəfindən açılan mədrəsədə alıb. Kəndimizin dini işlərini yerinə yetirib. Eyni zamanda kolxoz dövründə, arabaçı işləyib. Çox çılğın və tələsgən olub. Müxtəlif əmək medalları ilə təltif edilmişdir. Qardaşı **Nuriyev Qubad Cavad oğlu**, Azərbaycan Xalq Cümhuriyyətinin əsgərlərindən olub və 1920-ci ildə Azərbaycanın müstəqilliyi uğrunda şəhid olub. Bu səbəbdən Atası **Molla Cavad** ürək xəstəliyindən dünyasını dəyişib. Atasına və qardaşına görə Stalin dövründə sovxozun ən ağır işlərində işləyib. Türk dili (Azərbaycan türkcəsi), ərəb, fars və talış dillərini yaxşı bilib. 3 mart, 1966-cı ildə doğulduğu Masallı rayonu, Qasımlı kəndində vəfat edib. Allah rəhmət eləsin.



**Nəsirov Kamil Mustafa oğlu** 1918-ci ildə Lənkəran qəzasının (indiki Masallı rayonu), Qasımlı kəndində anadan olmuşdur. Təxminən 1928-ci ildə gözlərinə "çiçək" xəstəliyi düşmüş və gözləri zəif görməyə başlamışdır. Bir neçə müddətdən sonra ümumiyyətlə gözləri dünya işığına həsrət qalmışdır. Buna baxmayaraq qəlbində Allah sevgisi olan Kamil kişi, 1967-1968-ci illərdə Masallının Seybətin kəndində yaşayan Mirhüseyn ağadan dini təhsil almışdır. Eyni zamanda Masallıda gözdən əlil olan insanlar üçün xüsusi məktəbdə təhsil almışdır. Tarixi araşdırmaçıların söylədiklərindən məlum olur ki, sovet dövründə dini fəaliyyətinə görə din xadimlərinin bir hissəsi yerindəcə güllələnir, bir hissəsi Qazaxıstan, Orta Asiyaya sürgün olunur, bəzilərinin isə mülkiyyəti əlindən alınırdı. Bunları Kamil kişi çox yaxşı bilirdi. Buna baxmayaraq onun qəlbində Allaha, imamlarımıza və peyğəmbərlərimizə böyük məhəbbət var idi. Vacib və müstəhəb namazlarını axsaltmayan, Quran əhli və zəhmətkeş bir ziyalı olmuşdur Kamil kişi. 1992-ci ildə doğulduğu Masallı rayonunun, Qasımlı kəndində vəfat edib.[1]

Mən də Kamil babaya Allahdan rəhmət diləyirəm.

[1] Məlumatları və şəkli təqdim etdi: Nəsirov Mehman Gülağa oğlu



**Fərəcov Fəyyaz Qasım oğlu** 1921-ci ildə Azərbaycan SSR, Lənkəran qəzasının (indiki Masallı rayonunun), Qasımlı kəndində anadan olmuşdur. Dini bilikləri səbəbindən doğulduğu kəndin seçilmiş şəxslərindən sayılırdı.

O, 1941-ci ildə Masallı rayon hərbi Komissarlığı tərəfindən Sovet ordusu sıralarına çağırılaraq Rostov vilayəti Proxladnaya şəhərində yerləşən hərbi hissələrin birində xidmət etməyə başlayır. 1941-ci ildə Krımın müdafiəsi uğrunda gedən qızğın döyüşlərdə qəhrəmancasına vuruşmuşdur. 1942-ci ildə cəbhədə olarkən İzyum şəhərində (Xarkov ətrafı) gedən döyüşlərdə başından ağır yaralanaraq alman ordusu tərəfindən əsir götürülür. Əsirlikdə olarkən Stalino (indiki Donetsk) və Almaniyanın Ştrans şəhərlərindəki hərbi əsir düşərgələrində saxlanılmış, orada 4-5 ay qaldıqdan sonra İtaliyaya göndərilmişdir. SSRİ Hökumətinin 10 saylı Fərmanına əsasən 19 noyabr 1944-cü ildə ingilis komandanlığı tərəfindən 2909 nömrəli eşelona (cəbhə dərinliyində mövqe tutan və bu qaydada yeriyən qoşun hissəsinə) çatdırılmışdır. 21 noyabr, 1944-cü ildə 12 nömrəli fərmana əsasən, Uzaq Şərq mədənlərinə göndərilmiş və burada 1947-ci ilin aprel ayınadək işləmişdir.[1]

[1] Dövlət təhlükəsizliyi xidmətindən əldə olunmuşdur

Daha sonra öz doğma kəndinə qayıtmış və Mirhüseyn ağadan dini təhsil alaraq məsciddə Quran dərsi verərək öz bilik və bacarığını gələcək nəsillərə öyrətmişdir.


„ЗА ДОБЛЕСТНЫЙ ТРУД
В ВЕЛИКОЙ ОТЕЧЕСТВЕННОЙ ВОЙНЕ
1941—1945 гг.“

АТ № 015215

УДОСТОВЕРЕНИЕ

ЗА ДОБЛЕСТНЫЙ И САМООТВЕРЖЕННЫЙ ТРУД В ПЕРИОД ВЕЛИКОЙ ОТЕЧЕСТВЕННОЙ ВОЙНЫ

ФАРАДЖОВ ФАЯЗ
КАСЫМ ОГЛЫ

УКАЗОМ ПРЕЗИДИУМА ВЕРХОВНОГО СОВЕТА СССР от 6 июня 1945 года
НАГРАЖДЕН МЕДАЛЬЮ
„ЗА ДОБЛЕСТНЫЙ ТРУД
В ВЕЛИКОЙ ОТЕЧЕСТВЕННОЙ
ВОЙНЕ 1941—1945 гг.“

ОТ ИМЕНИ ПРЕЗИДИУМА ВЕРХОВНОГО СОВЕТА СССР МЕДАЛЬ ВРУЧЕНА
19 июля 85 г.
Председатель горисполкома
(должность и подпись лица, вручившего медаль)
М. П.

O Azərbaycan türkcəsilə yanaşı, həm də rus və ərəb dillərini də bilirdi. Onun müharibədə çəkdiyi iztirablar, əzab-əziyyət dövlət tərəfindən diqqətsiz qalmamış və bu cəfakeş insan «1941-1945-ci illərdə BVM-də Almaniya üzərində Qələbəyə görə» medalı, «1941-1945-ci illərdə Qələbənin 30 illiyi», «SSRİ Silahlı Qüvvələrinin 60 illiyi» yubiley medalları, “1941-1945-ci illər Böyük Vətən müharibəsində rəşadətli əməyə görə” medalı, Əmək veteranı medalları ilə təltif olunmuşdur.



6 aprel 1985-ci ildə SSRİ Müdafiə Nazirliyi tərəfindən ikinci dərəcəli BVM ordeninə layiq görülmüşdür.[1]

16 mart, 1997-ci ildə Azərbaycan Respublikası Dövlət Əmlak Komitəsinin Masallı rayon şöbəsi tərəfindən Fərəcov Fəyyaz Qasım oğluna özəlləşdirmə payı verilib.

Uzun sürən xəstəlikdən sonra 19 may 1998-ci ildə Masallı rayonunun, Qasımlı kəndində vəfat edib və elə oradaca kənd qəbristanlığında torpağa tapşırılıb.

Allah rəhmət eləsin.


УДОСТОВЕРЕНИЕ

за долголетний добросовестный труд от имени Президиума Верховного Совета СССР Указом Президиума Верховного Совета ССР

от 30 ноября 1982 г.

награжден медалью

„ВЕТЕРАН ТРУДА"

Секретарь Президиума Верховного Совета ССР

М. П.

„14" декабря 1982 г.



[1] Rusiya mərkəzi arxivi və pamyat naroda saytından əldə olunmuşdur



**Alışanov Əsgər Əbdülhüseyn oğlu** 10 iyun 1921-ci ildə Lənkəran qəzasının (indiki Masallı rayonu), Qasımlı kəndində dünyaya gəlmişdir. Böyük Vətən Müharibəsində iştirak etmişdir. 1967-1968-ci illərdə **Mirhüseyn** və **Mirağabaladan** dini təhsil almış, Qasımlı kənd məscidində dini fəaliyyəti olmuşdur. O, ədalətli və Quran əhli olduğuna görə, kəndimizin sayılıb-seçilən ziyalılarından biri idi. Bütün xeyir-şərdə yaxından iştirak etməklə islam dininin saflığını və Allah yolu olduğunu göstərirdi. Əsgər Alışanov eyni zamanda sovxozda briqada müdürü, baza müdürü və idarədə işləmişdir. 2 fevral, 2005 ci ildə Masallı rayonunun, Qasımlı kəndində vəfat etmişdir. Allah rəhmət eləsin.[1]

[1] Məlumatları və şəkli təqdim etdi: Əzimov Elman Binəddin oğlu



**Kərimov Yasər İbad oğlu** 1930-cu ildə Azərbaycan SSR, Masallı rayonunun, Qasımlı kəndində anadan olub. Dini təhsilini, **Axund Mirhüseyn ağadan** öyrənmişdir. 1967-ci ildən Qasımlı kənd məscidində dini fəaliyyətə başlamış, dini mərasimlərində və yas mərasimlərində yaxından iştirak etmişdir. Molla Yasər olduqca xeyirxah və əməli-saleh bir şəxsiyyət olmuşdur. Məclislərdə elmi söhbətlər edərək islam dininin saf, təmiz din olduğunu insanlara çatdırmışdır. Eyni zamanda müxtəlif illərdə dəmir yolunda işləmişdir. Yasər Kərimov 17 sentyabr, 2000-ci ildə doğulduğu Masallı rayonu, Qasımlı kəndində vəfat etmişdir.

Allah rəhmət eləsin.[1]

[1] Məlumatları və şəkli təqdim etdi: Kərimov Əhyəbala Yasər oğlu



**Nuriyev Kərbəlayi Fərman İsa oğlu** 1935-ci ildə Azərbaycan SSR, Masallı rayonunun, Qasımlı kəndində anadan olub. O, ilk ruhani təhsilini Masallı rayonunun Seybətin kəndində yaşayan **Axund Mirhüseyn Axund Mirdaməd** oğlundan almışdır. Təsərrüfatla məşğul olan, gündoğandan, günbatana qədər soxvozda ağır fiziki işlərlə məşğul olan Fərman kişi, axşamlar Seybətin kəndinə, sonralar isə Göytəpə qəsəbəsinə gedib Mirhüseyn ağadan səhih Quran qiraətini, şəriət qanunlarını, dini ehkamları öyrənir, öz kəndlərində, ətraf kəndlərdə elin karına gəlir, hüzr mərasimlərini idarə edir. Lakin çox keçmir ki, həyatda öz valideynlərindən sonra ən çox sevdiyi adamı ustadı

Mirhüseyn ağanı itirir. Kərbəlayi Fərman deyir: *"Mən Mirhüseyn ağanın yanına nə az, nə çox düz səkkiz il ayaq döymüşəm. Mənimlə birlikdə onun onlarla tələbəsi var idi. Yadımdadır, Novruz bayramı, Ramazan bayramında hər bir tələbəsinə bayram sovqatlı bağlamalar təqdim edərdi ki, evimizə, ailəmizə aparaq, onlara korluq verməyək. Biz bu hədiyyələrdən imtina edəndə, o, inciyərdi. Deyrədi ki, bu sizə mali İmam hədiyyəsidir, götürməyə bilməzsiniz."*[1]

Fərman kişi, eyni zamanda Hakim Həsənov adına Qasımlı kənd tam orta məktəbində valideyn komitəsinin sədri olub. Kərbəlayi Fərman dəfələrlə Məhərrəmlik mərasimində yığılan vəsaitlə Qasımlı kəndinin yollarını təmir elətdirib, imkansız şəxslərə yardım edib, Qasımlı kənd məktəbinin dəhlizini öz vəsaiti hesabına plitə ilə döşətdirib.

11 yanvar 2016-cı ildə Masallı rayonu Qasımlı kəndində vəfat edib. Allah rəhmət eləsin!

---

[1] Nəcəf alimləri. Axund Mirdaməd Ağa Ocağı Masallı. Bakı, "Uniprint" nəşriyyatı, 2014, 816 səh.



**Nuriyev Yaqub İbrahim oğlu** 21 may 1939-cu ildə Azərbaycan SSR, Masallı rayonunun Qasımlı kəndində ruhani ailəsində anadan olub. 1946-cı ildə Yeddioymaq kənd orta məktəbinin birinci sinifinə daxil olmuş, 1953-cü ildə həmən məktəbin 8-ci sinifini bitirmişdir. 1954-1955-ci illərdə Qızılağac kənd məktəbini bitirib. 1955-ci ildə dini təhsilini Atası molla İbrahimdən almış, sonralar təhsilini artırmaq məqsədilə 1970-ci illərdə **Seyyid Mirhüseyn ağadan** dini təhsil almışdır. Öz dövründə həm Qasımlı kəndinin, həm də ətraf kəndlərin dini işlərini yerinə yetirib. Azərbaycan, rus, ərəb və fars dillərini bilib. 13 Sentyabr, 1994-cü ildə doğulduğu Qasımlı kəndində vəfat etmişdir.

Allah rəhmət eləsin![1]

[1] Məlumatları və şəkli təqdim etdi: Nuriyev Kərbəlayi Natiq Yaqub oğlu



**Nuriyev Kərbəlayi Natiq Yaqub oğlu** 1974-cü ildə Azərbaycan SSR, Masallı rayonunun, Qasımlı kəndində anadan olub. 1981-ci ildə Yeddioymaq kənd tam orta məktəbinin birinci sinifinə gedib. 1990-1991-ci illərdə Qasımlı kənd məktəbindən məzun olmuşdur. Dini təhsilini atası **Nuriyev Yaqub İbrahim** oğlundan almış, sonralar təhsilini artırmaq məqsədilə **Molla Fərmandan** dini ehkamları öyrənmişdir. 1994-cü ildən dini fəaliyyətə başlamış, yas mərasimlərində yaxından iştirak edir, Qasımlı kənd məscidində dini işləri yerinə yetirir, elin karına gəlir. Azərbaycan, rus və ərəb dillərini bilir. 3 dəfə Məşhəd ziyarətində, 1 dəfə isə Kərbəla ziyarətində olmuşdur.

Allah qəbul eləsin!

# MÜƏLLİMLƏRİMİZ

*Müqəddəsdir müqəddəslər içində,*
*Öz işində bir ustadır müəllim.*
*Halal zəhmət ilə fəxt edər gündə,*
*Biganə işlərə yaddır müəllim.*

*Bir parlaq günəşdi,o sönən deyil,*
*Xeyirxah əməldən, o dönən deyil.*
*Əgər dindirməsən, o dinən deyil,*
*Dinəndə alovdur, oddur müəllim.*

*Nəzər salaq gələcəyə, keçmişə,*
*Bəxş edibdir hər yetənə bir peşə.*
*Böyük aqillər də deyib həmişə,*
*Ən yüksək,şərəfli addir müəllim.* [1]

[1] Müəllif: Rəhim Qurbani



**Yusifov Balamirzə Ağamirzə oğlu** 1922-ci ildə Azərbaycan SSR, Lənkəran qəzasının (indiki Masallı rayonunun), Qasımlı kəndində anadan olmuşdur. 1929-cu ildə Qızılağac kənd məktəbinin 1-ci sinfinə getmiş, 1939-cu ildə təhsilini Qızılağac kənd məktəbində başa vuraraq, qonşu Öncəqala kəndində müəllim kimi fəaliyyətə başlamışdır. O 1940-cı ildə sovet ordusu sıralarına hərbi xidmətə çağırılıb. 1941-ci ildə Böyük Vətən müharibəsi başlanmışdır. Milyonlarla soydaşlarımız, o cümlədən Balamirzə Yusifov Alman faşiştləri ilə döyüşüb. O, SSRİ Ukraynanın,

Poltava şəhərinin ərazisində, Stalinqrad uğrunda gedən qızğın döyüşlərdə qəhrəmanlıq göstərmiş, 1943-cü ilin əvvəlində cəbhədə ağır yaralanmış və sol qolunu itirmişdir. 1943-cü ildə doğulduğu kəndə qayıdaraq, öz əmək fəaliyyətini davam etdirməyə başlamışdır. Azərbaycan və rus dillərini bilib. 6 aprel, 1985-ci ildə I dərəcəli BVM ordeninə və digər mükafatlarla təltif olunmuşdur. 1950-ci ildə Lenin adına Azərbaycan Pedaqoji İnstitutunun coğrafiya fakültəsinə daxil olub. 1955-ci ildə coğrafiya fakültəsi kursunu bitirdikdən sonra, Yeddioymaq kənd tam orta məktəbində coğrafiya fənni üzrə pedaqoji müəllim kimi işini davam etdirməyə başlayıb.

Balamirzə müəllim Qasımlı kəndinin ilk ali təhsillisi olub. 1988-ci ilə qədər müəllim işləyib. 21 iyun 1988-ci ildə vəfat edib. Allah rəhmət eləsin.



**Muxtarov Ağabala Nəhmət oğlu** 1927-ci ilin 15 may tarixində Masallı rayonunun Qasımlı kəndində anadan olmuşdur. Orta təhsilini bitirdikdən sonra Lənkəran Pedaqoji texnikumunu və təkmilləşmə kurslarını bitirmişdir. Uzun müddət Yeddioymaq kənd tam orta məktəbində müəllim, Şıxlar kənd məktəbində direktor vəzifəsində çalışmışdır.

Kəndimizin sayılıb-seçilən nümunəvi müəllimlərindən, həm də dindar bir şəxsiyyət olmuşdur.

2013-cü ilin 17 iyul tarixində doğulduğu Masallı rayonunun Qasımlı kəndində vəfat etmişdir.[1]

Allah rəhmət eləsin.

[1] Məlumatları və şəkli təqdim etdi: Muxtarov Əhməd Ağabala oğlu



**Əkbərov Mikayıl Ədil oğlu** 20 iyul 1930-cu ildə Azərbaycan SSR, Masallı rayonunun, Qasımlı kəndində anadan olub. Yeddioymaq kənd məktəbinin fəaliyyətində Əkbərov Mikayıl Ədil oğlunun böyük rolu olmuşdur. O, 1947-ci ildən məktəbdə müəllim işləmişdir. Əvvəlcə Lənkəran Pedaqoji texnikomunu sonra isə Azərbaycan Pedaqoji Universitetinin filologiya fakültəsini bitirdikdən sonra, Azərbaycan dili və Ədəbiyyatını sevə-sevə şagirdlərə öyrətmişdir. 1968-ci ildən T.M.Bayraməlibəyov adına İkinci Yeddioymaq kənd tam orta məktəbinin direktoru vəzifəsində çalışıb. 1990-cı ildən ömrünün sonuna kimi, Hakim Həsənov adına Qasımlı kənd tam orta məktəbində müəllim işləmişdir. Mikayıl müəllim pedaqoji fəaliyyətinə görə Təhsil Nazirliyinin ***"Fəxri Fərmanı"*** ilə təltif edilmişdir. Eyni zamanda, Nizami Gəncəvinin yaradıcıllığından bəhs edən **"Kamillik zirvəsi" (Bakı, 1999)** kitabının müəllifidir. Mikayıl Əkbərov ədalətli dövlət başçısı kimi Ulu öndər **Heydər Əliyevi** həmişə nümunə göstərərək təbliğ edirdi. 26 sentyabr 2005-ci ildə vəfat etmişdir.

Allah rəhmət eləsin![1]

[1] Mənbə: Tofiq İslamov, Yeddioymaq tarixi kitabı. səh.107



**Qulamov Xanoğlan Kərim oğlu** 30 oktyabr 1939-cu ildə Masallı rayonunun Qasımlı kəndində anadan olmuşdur. 1946-cı ildə Yeddioymaq kənd tam orta məktəbinin 1-ci sinfinə getmiş və 1956-cı ildə həmin məktəbi bitirmişdir.

1963-cü ildə Respublika baş pioner Dəstə rəhbərləri məktəbini bitirmişdir. 1964-cü ildə Azərbaycan Dövlət Pedaqoji institunun qiyabi şöbəsinə daxil olmuş və 1969-cu ildə ibtidai təhsil pedaqogikası və metodikası ixtisası üzrə tam kursu bitirmişdir. 1970-ci ildən 1990-cı ilə qədər Yeddioymaq kənd tam orta məktəbində dil-ədəbiyyat fənnini şagirdlərə sevə-sevə öyrətmişdir.

17 oktyabr 1990-cı ildə dünyasını dəyişmişdir.

Allah rəhmət eləsin, məkanı cənnət olsun!

Tabut bir atdır ki, hamı minəcək.
Məzar bir evdir ki, hamı girəcək.
Ömürsüz bir dünya kimə qalacaq?
Qara torpaq bizləri udacaq![1]

[1] Müəllif: Qulamov Əflatun Xanoğlan oğlu



**Dadaşov Qardaşxan Şahmur oğlu** 20 aprel 1939-cu ildə Masallı rayonunun Qasımlı kəndində anadan olmuşdur. Atası Səmədov Şahmur Dadaş oğlu 1941-ci ilin iyun ayında sovet ordusu sıralarına çağrılıb. 1943-cü ilin may ayında itgin düşmüş və bir daha geri qayıtmamışdır. Qardaşxan müəllim 1946-1956-cı illərdə Yeddioymaq kənd tam orta məktəbində təhsil almışdır. 1957-ci ildə hərbi xidmətə getmiş və 1959-cu ildə ordu sıralarından tərxis olunmuşdur. Əvvəlcə Lənkəran Pedaqoji institunu, daha sonra Azərbaycan Pedaqoji Rus dili və Ədəbiyyatı İnstitutunu bitirmişdir. 1964-cü ildən 1990-cı ilə qədər Yeddioymaq kənd tam orta məktəbində Rus dili fənnindən dərs demişdir. 1991-ci ildən Hakim Həsənov adına Qasımlı kənd tam orta məktəbində Rus dili fənnini şagirdlərə öyrətmiş, sonralar ibtidai sinif müəllimi işləmişdir. O, həm də mənim sinif rəhbərim olub. Əlifba bayramında keçirilən tədbirdə səsləndirdiyim şeir, heç vaxt yaddaşımdan çıxmaz:

“Əlifbada Ə hərfi lap birinci olacaq,
ƏLİ ƏKBƏR kəlməsi qızılla yazılacaq!”

Onu da qeyd edim ki, müəllimin yazdığı şeirlər “Yeni Həyat” qəzetində işıq üzü görmüşdür. Hazırda təqaüddədir. Allahdan Qardaşxan müəllimə uzun ömür, cansağlığı arzulayıram.

## Ürəyim açılıb gözəl günlərə

Ürəyim açılıb gözəl günlərə,
Yadam əzəl gündən hiyləyə, şərə.
Xoş gün arzularam bütün bəşərə,
Vuran ürəyimin haqq səsiyəm mən.

Bağa ərik üçün yol açanlara,
Haqdan ədalətdən yan qaçanlara,
İlğım tək yalançı bərq saçanlara,
Sözümü mərdan deyəsiyəm mən.

Saflıq, təmizlikdir bu axar sular,
Qəlbimdə qaynayar, qəlbimdə çağlar.
Qardaşxan, həmişə bahar arzular,
Sözümün, vədimin yiyəsiyəm mən.[1]

[1] Müəllif: Qardaşxan Dadaşov



**Alışanov Fəyyaz Feyzulla oğlu** 20 yanvar 1939-cu ildə Azərbaycan SSR, Masallı rayonunun, Qasımlı kəndində anadan olub. 1946-cı ildə Yeddioymaq kənd tam orta məktəbinin 1-ci sinfə getmiş, 1956-cı ildə həmən məktəbi uğurla bitirmişdir. Lənkəran Pedaqoji teknikomunu əla qiymətlərlə bitirdikdən sonra, 1976-cı ildə Azərbaycan Pedaqoji Rus dili və Ədəbiyyatı İnstitutuna (indiki Bakı Slavyan Universiteti) daxil olub və 1981-ci ildə həmin İnstitutu müvəffəqiyyətlə başa vurmuşdur. İkinci Yeddioymaq və Qasımlı kənd tam orta məktəbində Rus dili fənnini tədris etmişdir. ”Şəxs adları” adlı kitabın müəllifidir. 24 oktyabr, 2018-ci ildə Masallının Qasımlı kəndində vəfat etmişdir. Qasımlı kənd qəbiristanlığında torpağa tapşırılıb. Allah rəhmət eləsin![1]

[1] Məlumatları və şəkli təqdim etdi: Nuriyev Kərbəlayi Natiq Yaqub oğlu



**Muxtarov Balaqardaş Nəhmət oğlu** 21 yanvar 1941-ci ildə Masallı rayonunun Qasımlı kəndində anadan olub. 1948-ci ildə Yeddioymaq kənd tam orta məktəbinin 1-ci sinfinə getmiş və 1958-ci ildə həmin məktəbi bitirmişdir.

1959-cu ildə hərbi xidmətə getmiş, 1965-ci ildə Lənkəran pedaqoji məktəbində təhsil almışdır. Təhsilini başa vurduqdan sonra, Yeddioymaq kənd tam orta məktəbində ibtidai sinif müəllimi işləmişdir. 3 oğul və 1 qız atası olub.

16 dekabr 2008-ci ildə dünyasını dəyişmişdir.[1]

Allah rəhmət eləsin.

[1] Məlumatları və şəkli təqdim etdi: Muxtarov Əhməd Ağabala oğlu



**Ağayev Əmirxan Ataş oğlu** 13 may 1942-ci ildə Azərbaycan SSR, Masallı rayonu Qasımlı kəndində anadan olub. Lənkəran Pedaqoji məktəbini bitirib. 1967-1972-ci illərdə təhsilini, V.İ.Lenin adına Pedeqoji İnistitutun Dil-Ədəbiyyat fakültəsini müvəffəqiyyətlə bitirmişdir. Əmirxan müəllimi həmin inistituta müəllim kimi dəvət etsələr də ailə vəziyyəti ilə əlaqədar olaraq imtina etmişdir. İkinci Yeddioymaq kənd orta məktəbində dil ədəbiyyatı müəllimi və 1986-cı ildən 1990-cı ilə qədər direktor vəzifəsində işləmişdir. 1990-1995-ci illərdə Hakim Həsənov adına Qasımlı kənd orta məktəbində ilk direktor vəzifəsində işləyib. 22 may, 2014-cü ildə Masallı rayonu, Qasımlı kəndində vəfat edib. Allah rəhmət eləsin![1]

[1] Məlumatları və şəkli təqdim etdi: Əmirov İqrar İskəndər oğlu



**Təvəkkül Soltan oğlu Məmiyev** 1943-cü ildə Azərbaycan SSR, Masallı rayonunun Qasımlı kəndində anadan olub. Azərbaycan Dövlət Pedaqoji İnstitunun kimya fakültəsini bitirmişdir. 1970-1982-ci illərdə Yeddioymaq kənd orta məktəbinə rəhbərlik etmişdir. O, dövrünün əsl pedaqoqu, məktəb təşkilatçısı və dostluqda ən etibarlı bir şəxs, həyalı bir insan olmuşdur.

Gözəl, səliqəli və təvazökar insan idi. Kəndimizin də ən sevimli sakini və müəllimi idi. Təvəkkül müəllim Yeddioymaq kənd tam orta məktəbində on ildən yuxarı bir vaxtda direktor işləmişdir. 1984-cü ildə dörd kəndi – Birinci Yeddioymaq, Qasımlı, İkinci Yeddioymaq və Şıxlar

kəndlərini əhatə edən **Krupskaya** adına tərəvəzçilik-süd-çülük sovxozunun direktoru seçilib. Rayon kooperativlər ittifaqında tədarükçü işləyib. Həmçinin Masallı RİH başçısının inzibati ərazi üzrə nümayəndəsi də işləmişdir. 1990-cı ildən Hakim Həsənov adına Qasımlı kənd tam orta məktəbində kimya fənnini tədris etmişdir. 16 noyabr, 2002-ci ildə doğulduğu Qasımlı kəndində vəfat edib.

Allah rəhmət eləsin.[1]

## MƏNİM MÜƏLLİMİM ÖLÜB DEDİLƏR

Ağladı təbiət hey asta-asta,
Göylərin üzümü tutuldu yenə?
Ana təbiətdə hey ağlayırdı…
Mənim müəllimim ölüb dedilər.

Qayalar elə bil göz yaşı tökdü
Qayalar bir boy da kiçilmişdilər
Ucalar bir boy da hey kiçildilər
Mənim müəllimim ölüb dedilər.

Aman Allah, bu necə də ölümdür
Bu qara torpaqda bu nə zülümdür
Həyatın sonumu bu cür ölümdür
Mənim müəllimim ölüb dedilər.

[1] Mənbə: Tofiq İslamov, Yeddioymaq tarixi kitabı. səh.112

Kainat soraqlı, sirlidir hələ
Ömürlər mənalı, sözlüdür hələ.
Acı duyğularım gəlibdir dilə,
Mənim müəllimim ölüb dedilər.

Göz yaşım, axacaq dəniz,
Həyat gözlərimə baxacaq, dəniz
Bu susuz səhralar axacaq, dəniz
Mənim müəllimim ölüb dedilər.

Dərdimi daşlara yazdım, neyləyim
Bu qara daşlara baxdım neyləyim
Bu məzar daşımı?
Baxım neyləyim,
İlahi, ilahi axı neyləyim?
Mənim müəllimim ölüb dedilər.[1]

[1] Müəllif: İsayev Ədalət Əliheydər oğlu



**Nuriyev Xankişi Əyyub oğlu** 3 aprel 1946-cı ildə Azərbaycan SSR, Masallı rayonu, Qasımlı kəndində anadan olub. 1953-cü ildə Yeddioymaq kənd tam orta məktəbinin 1-ci sinifinə getmiş, 1963-cü ildə həmən məktəbi bitirmişdir. 1968-1972-ci illərdə Azərbaycan pedaqoji institunu müvəffəqiyyətlə bitirdikdən sonra, Yeddioymaq kənd tam orta məktəbində tarix fənnini tədris etmişdir. 1990-cı ildən Hakim Həsənov adına Qasımlı kənd tam orta məktəbində tarix fənnini şagirdlərə sevə-sevə öyrətmişdir. Eyni zamanda Qasımlı kənd tam orta məktəbində təşkilatçı və tərbiyə işləri üzrə müavin işləmişdir. Azərbaycan və rus dillərini bilirdi. Peşəkar və səliqəli müəllim olmuşdur. 10 dekabr, 2015-ci ildə doğulduğu Masallı rayonu, Qasımlı kəndində vəfat edib!

Allah rəhmət eləsin![1]

[1] Məlumatları və şəkli təqdim etdi: Nuriyev Xaqani Xankişi oğlu



**Babayev Əlinadir Təyyar oğlu** 1948-ci ildə Masallı rayonun Qasımlı kəndində anadan olub. Orta məktəbi bitirdikdən sonra 1967-1969-cu illərdə hərbi xidmətdə olub. Ordudan təxris olunduqdan sonra ADPİ-nun dil-ədəbiyyat fakültəsinə daxil olub, 1976-cı ildə həmin məktəbi uğurla başa vurub. Yeddioymaq kənd orta məktəbində müəllim, tədris işləri üzrə direktor müavini, 1983-1986-cı illər Yeddioymaq kənd tam orta məktəbində direktor vəzifəsində çalışmışdır. 1990-cı ildən Qasımlı kənd orta məktəbində dil-ədəbiyyatı müəllimi kimi fəaliyyət göstərib. 20 iyun, 2016-cı ildə Masallı rayonu, Qasımlı kəndində vəfat edib.[1]

Allah rəhmət eləsin!

[1] Məlumatları və şəkli təqdim etdi: Babanlı Elşən Əlinadir oğlu



**Alışanov Fərhad Əsgər oğlu** 4 oktyabr 1949-cu ildə Masallı rayonunun Qasımlı kəndində anadan olub. 1956-cı ildə Yeddioymaq kənd məktəbinə getmiş, 1966-cı ildə həmin məktəbi bitirdikdən sonra, Azərbaycan Dövlət Pedaqoji Universitetinə daxil olmuşdur. 1970-ci ildə oranı müvəffəqiyyətlə bitirmişdir.

1970-ci ildən 1972-ci ilə qədər Yeddioymaq kənd məktəbində müəllim işləmişdir. 1972-ci ildə hərbi xidmətə getmiş, 1973-cü ildə hərbi xidməti başa vurmuşdur.

1973-cü ildən 1976-cı ilə kimi müəllimlik fəaliyyətini davam etdirmişdir. 1976-cı ildə Türkmənistanın Krasnovodsk (indiki Türkmənbaşı) şəhərinə getmiş və orada müəllim işləmişdir. 1978-ci ildə Aşqabad xalq təsərrüfatı institutuna qəbul olmuş, 1982-ci ildə həmən institutu bitirmişdir. 1982-ci ildən 1994-cü ilə qədər Krasnovodsk şəhərində ticarət şöbəsində iqtisadçı vəzifəsində işləmişdir. 1994-cü ildə Bakıya qayıtmış və riyaziyyat fənnindən dərs demişdir. 2012-ci ildə təqaüdə çıxmışdır. 2015-ci ilin sentyabrın 3-də vəfat etmişdir.

Allah rəhmət eləsin.[1]

[1] Məlumatları və şəkli təqdim etdi: Alışanov Ülvi Güloğlan oğlu



**Mustafayev Bəhlul Zalı oğlu** 10 noyabr 1949-cu il Azərbaycan SSR, Masallı rayonunun Qasımlı kəndində anadan olmuşdur. 1956-cı ildə Yeddioymaq kənd tam orta məktəbinin 1-ci sinfinə getmiş, 1966-cı ildə məktəbi bitirmişdir. 1968-ci ildə Lənkəran Pedaqoji Texnikomuna daxil olub və texnikomu 1970-ci ildə müvəffəqiyyətlə bitirmiş, hərbi xidmətə yollanmışdır. 1972-ci ildə ordudan təxris olunmuşdur. 1979-cu ildə Azərbaycan Pedaqoji İnstitutunun Tarix fakültəsinə daxil olub və həmin İnstitutu əla qiymətlərlə bitirmişdir. Yeddioymaq kənd tam orta məktəbində ibtidai sinif müəllimi işləmişdir. Hər 3 kəndi birləşdirən (**Qasımlı, Birinci Yeddioymaq və İkinci Yeddioymaq**) Sovxozunun direktoru işləmişdir. Hakim Həsənov adına Qasımlı kənd tam orta məktəbində ibtidai sinif və tarix müəllimi kimi fəaliyyət göstərmişdir. Qasımlı kənd tam orta məktəbində direktor vəzifəsini müvəqqəti icra etmişdir. İxtisası olduğu fənnini şagirdlərə böyük həvəslə tədris etmişdir. O, kəndimizin əsl ziyalı və hörmətli müəllimlərindəndir.



**Salamov Əlövsət Ələkbər oğlu** 28 mart 1950-ci ildə Azərbaycan SSR, Masallı rayonunun, Qasımlı kəndində anadan olmuşdur. 1956-cı ildə Yeddioymaq kənd tam orta məktəbinin 1-ci sinfinə daxil olur və 1966-cı ildə oranı müvəffəqiyyətlə bitirir. Həmin il Lənkəran Pedaqoji Texnikomuna qəbul olub, 1968-ci ildə həmin texnikomu başa vurmuşdur.1969-cu ildən 1970-ci ilə qədər Biləsuvar şəhərində ibtidai sinif müəllimi işləmişdir. 1974-cü ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun coğrafiya fakültəsinə daxil olub və həmin ali məktəbi 1978-ci ildə əla qiymətlərlə bitirmişdir. 1978-ci ildə ixtisası üzrə Yeddioymaq kənd tam orta məktəbində müəllim işləmişdir. 1986-cı ildən 1990-cı ilə qədər Yeddioymaq məktəbində direktor müavini, 1990-cı ildən 1994-cü illər ərzində Qasımlı kənd məktəbində direktor müavini kimi fəaliyyət göstərmişdir. Həmçinin 2015-2016-cı illər Hakim Həsənov adına Qasımlı kənd tam orta məktəbində direktor müavini işləmişdir. RTŞ-nin "Fəxri Fərman"ına layiq görülmüşdür. İxtisası olduğu fənnini şagirdlərə sevə-sevə öyrətmişdir.

Allah uzun ömür, cansağlığı versin.



**Mustafayev Museyib Qardaşxan oğlu** 5 aprel 1950-ci ildə Masallı rayonunun Qasımlı kəndində anadan olmuşdur. 1957-1967-ci illərdə Yeddioymaq kənd tam orta məktəbini bitirmişdir. 1968-1969-cu illərdə hərbi xidmətdə olmuşdur. 1970-ci ildə hərbi xidmətdən təxris olunduqdan sonra, Lənkaran Pedaqoji texnikomuna daxil olmuş və 1974-cü ildə oranı bitirmişdir. Daha sonra Azərbaycan Pedaqoji İnstitutunun dil-ədəbiyyat fakültəsinə daxil olmuş və oranı bitirmişdir.

1979-cu ildən 1990-cı ilə qədər Yeddioymaq kənd tam orta məktəbində dil-ədəbiyyat müəllimi işləmişdir. 1991-ci ildən 2002-ci ilə qədər Hakim Həsənov adına Qasımlı kənd tam orta məktəbində ibtidai sinif müəllimi, 2006-2016-cı illərdə  həmin məktəbin direktoru vəzifəsində çalışmışdır. Allah uzun ömür, cansağlığı versin!



**Nuriyev Surət Qüdrət oğlu** 15 iyun 1953-cü ildə Azərbaycan SSR, Masallı rayonu, Qasımlı kəndində anadan olub. 1960-cı ildə Yeddioymaq kənd orta məktəbinin 1-ci sinifinə, 1967-ci ildə komsomol təşkilatı sıralarına qəbul olunub. 1970-ci ildə həmən məktəbi əla qiymətlərlə bitirib. Orta məktəbi bitirdikdən sonra 1970-ci ildə Kalinovka kənd (indiki Viləş kəndi) sofxozunda əmək fəaliyyətinə başlayıb. 1971-ci ildə Lenin adına Azərbaycan Pedaqoji İnstitunun (indiki ADPU) riyaziyyat fakültəsinin qiyabi şöbəsinə qəbul olub. Eyni zamanda institutda oxuya-oxuya Yeddioymaq məktəbində müəllim kimi fəaliyyət göstərib. 1972-ci ildə institutu dayandıraraq hərbi xidmətə yollanır. 1972-1974-cü illərdə Sovet ordusunun Almaniyadakı hərbi hissəsində xidmət edib. Hərbi xidməti başa vurduqdan sonra Yeddioymaq kənd orta məktəbində pioner baş dəstə rəhbəri kimi fəaliyyət göstərib. 1976-cı ildən Yeddioymaq kənd orta məktəbində riyaziyyat müəllimi, 1982-1985-ci illərdə direktor müavini işləyib. 1990-cı ildən Qasımlı kənd tam orta məktəbində riyaziyyat müəllimi kimi işləyir. Qasımlı kənd məktəbinin Həmkarlar təşkilatının sədridir. 2003-cü ildən 70/36 saylı Qasımlı kənd seçki məntəqəsinin komissiya sədridir.[1]

Surət müəllim kəndimizin sevilən ziyalılarındandır.

[1] Məlumatları və şəkli təqdim etdi: Şamıyev Vidahim İlqar oğlu



**Kərimov Qurban (İsmayıl) Zalı oğlu** 15 avqust 1953-cü ildə Masallı rayonunun Qasımlı kəndində anadan olmuşdur. 1960-cı ildə Yeddioymaq kənd tam orta məktəbinin 1-ci sinfinə daxil olub, oranı müvəffəqiyyətlə bitirmişdir. 1973-cü ildə hərbi xidmətə yollanıb və 1975-ci ildə ordudan təxris olunmuş, hərbi xidməti başa vurmuşdur. 1977-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun dil-ədəbiyyat fakültəsinə daxil olub və oranı əla qiymətlərlə bitirmişdir.

Yeddioymaq kənd tam orta məktəbində pioner baş dəstə rəhbəri işləmişdir. Dil-ədəbiyyat fənnini şagirdlərə sevə-sevə öyrətmişdir. Müxtəlif illərdə Birinci Yeddioymaq, İkinci Yeddioymaq və öz doğma Qasımlı kəndində müəllim işləmişdir. Azərbaycan Müəllimlər İnstitutunun ibtidai metodika ixtisası üzrə 2-ci Ali təhsil almışdır. 70/36 saylı Qasımlı məntəqə seçki komissiyasının üzvüdür. Allah uzun ömür, cansağlığı versin.



**Abdullayev Nağı Sultan oğlu** 12 aprel 1962-ci ildə Masallı rayonunun Qasımlı kəndində anadan olub. Orta təhsilini Yeddioymaq kənd orta məktəbində başa vurmuşdur. 1979-cu ildə Azərbaycan Dövlət Universitetinə qəbul olmuş və 1985-ci ildə orada coğrafiya ixtisası üzrə tam kursu bitirmişdir. 1985-ci ildə coğrafiyaşünas müəllim ixtisası verilmişdir. Daha sonra təhsil aldığı Yeddioymaq kənd tam orta məktəbində coğrafiya fənnindən dərs demişdir.

1995-1996-cı illərdə Hakim Həsənov adına Qasımlı kənd tam orta məktəbinin direktoru vəzifəsində işləmişdir. Ömrünün sonunadək coğrafiya fənnini şagirdlərə sevə-sevə öyrətmişdir.

2012-ci ilin 7 mart tarixində dünyasını dəyişib.[1]

Allah rəhmət eləsin.

[1] Məlumatları və şəkli təqdim etdi: Balayev Kamil Əsəd oğlu



**Babanlı Elşən Əlinadir oğlu** 19 oktyabr 1971-ci ildə Azərbaycan SSR, Masallı rayonunun Qasımlı kəndində anadan olub. 1978-ci ildə Yeddioymaq kənd orta məktəbinin birinci sinifinə gedib, 1988-ci ildə o məktəbi əla qiymətlərlə bitirib və həmən il indiki N.Tusi adına Pedaqoji Universitetinin fizika fakültəsinə fizika-riyaziyyat ixtisasına qəbul olub. 1993-cü ildə universteti fərqlənmə diplomu ilə bitirib.

1995-ci ildən Qasımlı kənd orta məktəbində fizika riyaziyyat müəllimi işləyib. 1999-cu ildə Qasımlı kənd Bələdiyyəsinə üzv seçilib. 2000-ci ildən 2006-cı ilədək Hakim Həsənov adına Qasımlı kənd orta məktəbinin direktoru işləyib. Direktor işlədiyi müddətdə Qasımlı kənd məktəbində tədris və təlimin yüksəlməsində, eləcə də məktəbin infrastrukturunun yenilənməsində xeyli işlər görmüşdür. Qasımlı kənd orta məktəbinin həyətində ucaldılan Böyük Vətən Müharibəsi və Qarabağ Şəhidlərinin xatirə abidəsinin təşəbbüskarı və layihə müəlliflərindən biri olub. 2006-cı ildən Bakı şəhərində müxtəlif abituriyent hazırlıq kurslarında fizika və riyaziyyat fənlərini tədris edib. Daha sonra dostu Emin Məmiyevlə təsis etdikləri “Kvant-EL” abituriyent hazırlığı kurslarının rəhbəri olub.

2010-cu ildən EMBAWOOD şirkətində işləyir.

# HAKİM HƏSƏNOV ADINA QASIMLI KƏND TAM ORTA MƏKTƏBİ






**Hakim Həsənov adına Qasımlı kənd tam orta məktəbi** Qasımlı camaatının yazdığı ərizə nəticəsində 1990-cı ildən fəaliyyətə başlamışdır.

Məktəb 1993-cü il aprelin 5-də Laçın rayonundakı Qızartı yüksəkliyini erməni qəsbkarlarından azad edərkən qəhrəmancasına həlak olmuş **Həsənov Hakim Cəmiyağa oğlunun** adını daşıyır.

1990-1995-ci illərdə məktəbə **Ağayev Əmirxan Ataş oğlu**, 1995-1996-cı illərdə **Abdullayev Nağı Sultan oğlu**, 1996-2000-ci illərdə yenidən Əmirxan müəllim, 2000-2006-cı illərdə **Babanlı Elşən Əlinadir oğlu**, 2006-2016-cı illərdə **Mustafayev Museyib Qardaşxan oğlu** rəhbərlik etmişdir.

2016-cı ildən məktəbə əslən Masallı rayonunun Xıl kəndindən olan **Gülhəsən Məmmədov** rəhbərlik edir.

2006-cı ildə Elşən Babanlının və digər ziyalılarımızın təşəbbüskarlığı nəticəsində Qasımlı kəndindən BVM-də və Qarabağ döyüşlərində şəhid olmuş qəhrəmanlarımızın şərəfinə abidə ucaldılıb.

Hakim Həsənov adına Qasımlı kənd tam orta məktəbinin direktoru Gülhəsən Məmmədovun məlumatına görə 2017-ci ildə məktəb əsaslı təmir olunub. Hazırda 22 nəfərlik pedoqoji heyyəti olan məktəbdə 155 şagird təhsil alır.


ŞƏHİD
HAKİM HƏSƏNOV
XALQIMIZIN
QƏHRƏMAN
OĞLUDUR!
25.X.1973 - 05.IV.1993


ABDULLAYEV ƏYYAZ QUBAD OĞLU 1928-1944
AĞAYEV ATAŞ MOLLAƏMİR OĞLU 1912
AĞAYEV XIDIR ZAHİD OĞLU 1923
AĞAYEV SƏRHƏNG MUSTAFA OĞLU 1924-1944
AĞAYEV MƏHƏRRƏM MUSTAFA OĞLU 1920-1942
BABAYEV TEYMUR TEYYUB OĞLU 1924
BALAYEV ƏMƏN İSA OĞLU 1921
BALAYEV ƏŞRƏF ƏMİŞ OĞLU 1910
BAYRAMOV ABBAS BAYRAM 1912
CAHANGİROV PÖRÜZ FƏRZƏLİ OĞLU 1918
ƏLİYEV MUĞBAD İSA OĞLU 1912
ƏLİYEV DAŞDƏMİR MOLLAXƏLİL OĞLU 1912
ƏSGƏROV ƏLİCAN FƏTULLA OĞLU 1908-1944
ƏSGƏROV BALAĞA 1911
FƏRƏCOV ABIŞ GƏNCƏLİ OĞLU
FƏRƏCOV SAHİB MÜRSƏL OĞLU 1923-1944
HƏSƏNOV HƏSƏN BALIŞ OĞLU
HÜSEYNOV İDRİS DADAŞ OĞLU 1919-1942
HÜSEYNOV QÜDRƏT MƏHƏRRƏM OĞLU
KƏRİMOV BAHADIR MÜRSƏL OĞLU
QURBANOV MƏHƏRRƏM XƏLİL OĞLU 1921-1943
MƏMMƏDOV DAŞDƏMİR SALMAN OĞLU 1923
NURİYEV ƏMƏNULLA ABASƏLİ OĞLU 1917
NURİYEV FƏRZULLA ABASƏLİ OĞLU 1915
RZAYEV YAVƏR SADIQ OĞLU
RZAYEV QƏZƏNFƏR SALMAN OĞLU
SƏLİMOV QADAŞ AĞABƏDƏ OĞLU 1920
SƏMƏDOV İBRAHİM DADAŞ OĞLU
SƏMƏDOV ŞAHMUR DADAŞ OĞLU 1914
ŞƏMMƏDOV MİSİRXAN İSA OĞLU 1914
SƏTTAROV HÜSEYN ƏJDƏR OĞLU 1914
VƏLİYEV LƏTİF YUSUB OĞLU
NURİYEV QUBAD CAVAD OĞLU 1900
ƏLİYEV MİRZƏHÜSEYN İSA OĞLU 1895
HƏSƏNOV HAKİM CƏMİYAĞA OĞLU
ORUCOV NATİQ ƏLİYAR OĞLU
QASIMOV QASIM HEYDƏR OĞLU
ABDULLAYEV ƏMRİ TALIB OĞLU

# ELM ADAMLARI



Əmək veteranı, aqronom, kimyaçı, biologiya üzrə fəlsəfə doktoru, yazıçı-publisist, AJB-nin üzvü, tədqiqatçı, müəllim **Sabir Abuş oğlu Fərəcov** 1 iyul 1938-ci ildə Azərbaycan SSR, Masallı rayonu, Qasımlı kəndində anadan olub. Atası **Fərəcov Abuş (Abdul) Gəncəli oğlu** 1941-ci ildə hərbi xidmətə çağırılıb və 1943-cü ildə Krım döyüşlərində həlak olmuşdur və birdaha geri qayıtmamışdır. Sabir Fərəcov 1953-cü ildə Yeddioymaq kənd orta

məktəbinə daxil olub, 1956-cı ildə Qızılağac kənd tam orta məktəbini, 1959-cu ildə Salyan kənd təsərrüfatı texnikomunun aqronomluq ixtisasını bitirmişdir. 1959-1961-ci illərdə hərbi xidmətdə olub. 1963-cü ildə Gəncə DPİ-un biologiya fakültəsinə qəbul olub. 1971-1972-ci illərdə Yeddioymaq kənd tam orta məktəbində müəllim və tədris işləri üzrə direktor müavini işləyib. 1990-2011-ci illərdə Qasımlı kənd tam orta məktəbində kimya-biologiya fənnini tədris edib. İşgüzarlığı, pedaqoji ustalığı və qayğıkeşliyi ilə ilk günlərdən şagirdlərinin və müəllim kollektivinin sevimlisinə çevrilib. Tədris etdiyi fənnini şagirdlərə sevdirməklə kənd ictimaiyyəti arasında dərin hörmət qazanıb. 2004-cü ildən 2017-ci ilədək Azərbaycan Milli Elmlər Akademiyası Radiasiya Problemləri İnstitunda bitkilərin insan orqanizminə təsirinin araşdırılması ilə məşğul olub. 2 iyun 2017-ci ildə biologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almışdır. Azərbaycan Jurnalistlər birliyinin üzvüdür. Sabir müəllimin əməyi dəfələrlə müxtəlif səviyyələrdə layiqincə qiymətləndirilmiş, dövlət mükafatlarına, fəxri fərmanlara layiq görülmüşdür. Sabir müəllim fədakar əməyinə görə "Əmək veteranı" medalına layiq görülmüşdür.

Maraqlıdır ki, 2 ildə müəllifin işıq üzü görən dörd kitabından 3-ü rus dilində nəşr olunmuşdur. Sabir müəllimin həyəti yüzlərlə bəzək və meyvə ağacı ilə zəngin nadir bir bağı xatırladır. Sabir müəllim qurub-yaradan biliyini təmənnasız insanlara bəxş etməyi bacaran Allah adamıdır. O həm də mehriban ailə başçısıdır. Həyat yoldaşı Arəstə xanımla 10 uşaq böyüdüb, tərbiyə etmişlər. Övladlarının hamısı ev-eşik sahibidir.

Sabir Fərəcov tibbə dair yazdığı kitablara və pedaqoji fəaliyyətinə görə RTŞ-nin fəxri fərmanını almışdır. Bioloq, Sabir Abuşoğlunun "Sekretı Zdorovya" (Sağlamlığın sirləri), "Formula molodosti i dolqoletiye" (Cavanlığın və uzun ömürün düsturu), "Verni svoye zdorovye" (Öz sağlamlığını qaytar), "Zdorovye – eto vaşe boqatstvo" (Sağlamlıq sizin sərvətinizdir), "Hipertoniya, ürək, şəkər xəstəlikləri və onların müalicəsi", "Sağlamlıq böyük nemətdir" kitabları artıq təkcə Azərbaycanda deyil, həmçinin MDB ölkələrində, xüsusilə də Rusiyada geniş oxucu kütləsinin rəğbətini qazanmışdır. Yazdığı bu kitablar müəllifin dərin müşahidə qabiliyyətinə, yüksək tədqiqatçı əzmkarlığına, geniş biliyə malik olmasının bariz sübutudur. Çoxlu sayda elmi və elmi-publisist ədəbiyyatı araşdırıb, aldığı nəticələri ümumiləşdirməklə, müəllif müxtəlif xəstəliklərin müalicəsi üçün tətbiq olunan üsullara yaradıcı nöqteyi-nəzərdən yanaşmış və onları sadə və anlaşılan dildə oxuculara çatdırmışdır. Xeyirxah insan, yorulmaz tədqiqatçı olan Sabir Abuş oğlu Fərəcovun kitabları insan sağlamlığına xidmət etdiyindən qiymətli vəsaitlər hesab olunur.[1]

Mən də Sabir müəllimə Allahdan uzun ömür, can-sağlığı arzulayıram.

[1] Aydın Şükürov. "Masallının təhsil fədailəri" 2-ci kitab.

# SABİR MÜƏLLİM

Ömrünə yazılıb qızıl sətirlə
Zəhmət dolu günlər, Sabir müəllim.
Tanındın sevildin el arasında
Aqronom, kimyagər, Sabir müəllim.

Min cür gül-çiçəkdən məlhəm yaratdın,
əlinlə möcüzə, aləm yaratdın,
Təbib tək xəstənin dadına çatdın,
Azaldı dərdi-sər, Sabir müəllim.

Çox yerdə yayılıb səsin, sorağın,
Qapını döyürlər günün hər çağı.
Uzun ömürlüyün, cavan qalmağın,
Sirrin kim bilir, Sabir müəllim?[1]

[1] Müəllif: İsayev Ədalət Əliheydər oğlu



**Əhmədov Sahib Həsən oğlu** 1943-cü ildə Azərbaycan SSR, Masallı rayonunun Qasımlı kəndində anadan olub. Yeddioymaq kənd orta məktəbini bitirib. Həkimliyə olan sevgisi onu Bakı Tibb Məktəbinə gətirib. Orta ixtisas təhsilini başa vurduqdan sonra Masallının ən ucqar kəndlərində, Yolağac və Zuvandda feldşer işləyib. 1966-cı ildə tibb unversitetinə qəbul olub. 1972-ci ildə universteti bitirib və rayonumuzda sanitariya həkimi kimi işləyib. 1975-ci ilə kimi sanitariya şöbəsinin müdiri vəzifəsində işləyib. 1975-

ci ildə kafedraya assistent seçilir. 1984-cü ildə "Azərbaycan Respublikası Subtropik şəraitində tərəvəzçilərin əməyinin fizioloji-gigiyenik xarakteristikası" mövzusunda dissertasiyası müdafiə edərək tibb elmləri namizədi alimlik dərəcəsi almışdır. 1992-ci ildən dosent vəzifəsində çalışır. 2006-cı ildən tibb universtetinin ictimai sağlamlıq fakültəsi Həmkarlar İttifaqı təşkilatının sədridir. 2010-cu ildə Həmkarlar İttifaqı Konfederasiyasının "Həmkarlar İttifaqında xidmətlərinə görə" medalı ilə təltif olunmuşdur.

İndiyədək 80-dən artıq elmi əsər nəşr etdirmişdir ki, onların sırasında ilk dəfə nəşr olunan 432 səhifəlik "Kütləvi tibb ensiklopediyası", iki monoqrafiya, bir 264 səhifəlik izahlı lüğət, 3 dərslik, 4 metodik göstəriş və sair vardır. Tibb elminə aid bir neçə dərslik, elmi ədəbiyyatın redaktorudur.

Sahib Əhmədov hazırda Azərbaycan Tibb Unversitetində dosent vəzifəsində çalışır.[1]

Allahdan bu gözəl alimə uzun ömür, cansağlığı arzulayıram.

[1] Məlumatları və şəkli təqdim etdi: Nuriyev Yusif Səfəralı oğlu



**Ağahüseyn Məmmədhüseyn oğlu Şükürov** 1964-cü ilin dekabrın 21-də Masallı rayonunun Qasımlı kəndində anadan olmuşdur. O, 1972-1982-ci illərdə Yeddioymaq kənd orta məktəbini əla qiymətlərlə oxumuşdur. Üçüncü sinifdə oxuyandan "Azərbaycan pioneri" qəzetində, "Pioner" jurnalında, sonradan Masallıda çıxan "Çağırış" qəzetində və digər mətbuat orqanlarında məqalələri dərc edilmişdir. 1979-cu ildə əlaçı şagird kimi Beynəlxalq "Artek" pioner düşərgəsində istirahət etmişdir. 1983-1985-ci illərdə Sovet Ordusu sıralarında (keçmiş Pribaltika Hərbi Dairəsi) həqiqi

hərbi xidmətdə olmuşdur. Hərbi xidmət zamanı Riqada çıxan "Za Rodinu" qəzetində vaxtaşırı olaraq çıxış etmiş, burada "Gənc hərbi müxbir" qiyabi məktəbində oxuyaraq vəsiqə almışdır. 1985-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) jurnalistika fakültəsinə qəbul olunmuş, 1991-ci ildə bu ali məktəbi müvəffəqiyyətlə bitirmişdir.

Ağahüseyn Şükürov 1988-ci ildən əmək fəaliyyətinə başlamışdır. Həmin ilin oktyabr ayından 1992-ci ilin okyabrınadək Masallı rayonunda çıxan "Çağırış" qəzetində əvvəlcə ədəbi işçi, sonra məsul katib vəzifələrində işləmişdir. Sonra bir müddət bir sıra respublika qəzetlərində korrektor, müxbir kimi fəaliyyət göstərmişdir. 1999-cu ildən Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) və Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının orqanı olan "Elm" qəzetinə müxbir qəbul edilmiş, 2007-ci ilədək burada məsul katib, baş redaktorun müavini vəzifələrində, həmçinin AMEA Mətbuat xidməti rəhbərinin müavini, AMEA Mərkəzi Aparatında Elmi informasiya şöbəsinin rəis müavini, AMEA İnformasiya Texnologiyaları İnstitutunun nəzdində "Elm" internet agentliyinin müxbiri, məsul katibi vəzifələrində çalışmışdır.

Milli Məclisin təsisçiliyi ilə nəşr olunan "Azərbaycan" qəzetində korrektor (2001-2007), 2007-ci ildən 2010-cu ilədək yenə burada məsul katibin müavini vəzifələrində işləmişdir. 2010-2013-cü illərdə yenidən "Elm" qəzetində müxbir, 2013-cü ilin oktyabrından 2014-cü ilin mart ayınadək AMEA Nizami adına Ədəbiyyat İnstitutunun mətbuat xidmətinin rəhbəri olmuşdur.

2014-cü ilin mart ayından AMEA-nın vitse-prezidenti, Milli Məclisin deputatı, akademik İsa Həbibbəylinin köməkçisi vəzifəsində işləyib.

Ağahüseyn Şükürov 2003-cü ildən indiyədək paralel olaraq Yazıçılar Birliyinin orqanı olan "Azərbaycan", eləcə də 2014-cü ildən "AMEA-nın Xəbərlər Məcmuəsi" jurnallarının əməkdaşıdır. O, 2000-ci ildən indiyədək Tələbə Qəbulu üzrə Dövlət Komissiyasında müqavilə üzrə imtahan rəhbəri kimi də çalışır.

AMEA Nizami adına Ədəbiyyat İnstitutunun dissertantı olmuş Ağahüseyn Şükürov "Əli Tudənin yaradıcılıq yolu" mövzusunda dissertasiya işini müdafiə edərək filologiya üzrə fəlsəfə doktoru elmi adını almışdır. Azərbaycanda, eləcə də xaricdə çap olunmuş 100-dən çox elmi və elmi-publisistik məqalənin müəllifidir. Ədəbiyyatşünaslıq üzrə bir monoqrafiyası çapa hazırlanıb. 2004-cü ildə AMEA-nın Fəxri Fərmanını almışdır.

Yeni Azərbaycan Partiyasının və Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür.

Fiologiya üzrə fəlsəfə doktoru Ağahüseyn Şükürov 2019-cu ildə AMEA Rəyasət Heyəti aparatının İctimaiyyətlə əlaqədar, mətbuat və informasiya şöbəsinə müdir təyin olunub.[1] Allah uzun ömür, cansağlığı versin.

[1] Məlumatları və şəkli təqdim etdi: Şükürov Əlihüseyn Məmmədhüseyn oğlu



**Şükürov Nəsib Heybət oğlu** 5 sentyabr 1974-cü ildə Azərbaycan SSR, Masallı rayonunun, Qasımlı kəndində anadan olmuşdur. Yeddioymaq kənd orta məktəbinin və Bakı Dövlət Universitetinin hüquqşünaslıq fakültəsini əla qiymətlərlə bitirmişdir. 1997-2001-ci illərdə BDU-nun hüquq fakültəsinin bakalavr pilləsini bitirib, 2001-2003-cü illərdə BDU-nun hüquq fakültəsinin magistr pilləsini “Dövlət hüququ” ixtisası üzrə bitirmiş, 2004-2008-ci illərdə BDU-nun “Konstitusiya hüququ; bələdiyyə hüququ” ixtisası üzrə qiyabi aspirantı olub; 2006-cı ildən BDU-nun Hüquq fakültəsinin Konstitusiya hüququ kafedrasının müəllimi işləyir; 2014-cü ildən BDU-nun Hüquq fakültəsində elmlər doktoru proqramı üzrə doktorantıdır; 2014-cü ildən Bakı Dövlət Universiteti nəzdindəki FD.02.013 Dissertasiya şurasının Seminar Şurasının üzvüdür; 2016-cı ildən BDU-nun Hüquq fakültəsinin Konstitusiya hüququ kafedrasının dosentidir.

Ailəlidir, iki övladı var.

# POLİS İŞÇİLƏRİ



**Nuriyev Allahverdi Musa oğlu** 15 iyun 1940-cı ildə Azərbaycan SSR, Masallı rayonunun Qasımlı kəndində anadan olub. 1947-ci ildə İkinci Yeddioymaq kənd orta məktəbinin 1-ci sinfinə getmiş və 1954-cü ildə yeddiillik məktəbi bitirdikdən sonra, 1955-1956-cı illərdə Masallı rayon N.Nərimanov adına 2 saylı tam orta məktəbini bitirmişdir. 1958-ci ildə Moldova Respublikasında hərbi xidmətə getmiş, 1961-ci ildə hərbi xidmətdən qayıtmışdır. Masallı Rayon Polis şöbəsində starşina rütbəsi ilə xidmət edib. Manqa komandiri vəzifəsində çalışmışdır. 1990-cı ildən təqaüddədir. Azərbaycan və rus dillərini bilir.

Hazırda Rusiyada yaşayır.[1]

[1] Məlumatları və şəkli təqdim etdi: Nuriyev Kərbəlayi Natiq Yaqub oğlu



**Rzayev Şirindil Salman oğlu** 1 iyul 1944-cü ildə Azərbaycan SSR, Masallı rayonunun Qasımlı kəndində anadan olub. 1963-cü ildə Rusiyanın Perma şəhərində hərbi xidmətə gedib. 1966-cı ildə hərbi xidmətdən qayıdıb. Serjant vəzifəsində işləyib. 1988-ci ildə polis tərəfindən Qarabağa göndərilib. 1990-cı ildə Şuşa şəhərində əməliyyatda olub. 1992-ci ildə Laçın şəhərində əməliyyatda olub. 2008-ci ilin yanvarın 27-də Masallı rayonunun, Qasımlı kəndində vəfat edib. Qasımlı kənd qəbirstanlığında torpağa tapşırılıb.[1] Allah rəhmət eləsin!

[1] Məlumatları və şəkli təqdim etdi: Rzayev Ramil Şirindil oğlu



**Kazımov Söhbət Seyfulla oğlu** 15 may 1952-ci ildə Azərbaycan SSR, Masallı rayonunun Qasımlı kəndində anadan olmuşdur. Orta təhsilini Yeddioymaq kənd orta məktəbində başa vurmuşdur. 1970-ci ildə hərbi xidmətə getmiş, 1972-ci ildə ordudan tərxis olunduqdan sonra Türkmənistanın Krasnovodsk (indiki Türkmənbaşı) şəhərinə getmişdir. 1978-ci ildə orta milis məktəbinə daxil olmuş, 1982-ci ildə oranı müvəffəqiyyətlə bitirmişdir. Daha sonra cinayət axtarış şöbəsində baş əməliyyatçı və rəis müavini vəzifələrində çalışmışdır. 1988-ci ildə polis akademiyasına daxil olmuş, 1993-cü ildə oranı bitirmişdir. 1994-cü ildə Bakıya qayıtmış və ədliyyə nazirliyində işini davam etdirmişdir. Eyni zamanda Qarabağda komendatura rəis müavini vəzifəsində çalışmışdır. 1997-ci ildə 6 sayılı İslah Əmək Düşərgəsinin baş rəisi vəzifəsində çalışmış, 1999-cu ildə Masallı rayon İslah əmək komendaturasında rəis müavini vəzifəsində işləyib. 2006-cı ildə Polkovnik leytenant rütbəsi ilə təltif olunmuşdur.

5 iyun, 2007-ci ildə doğulduğu Masallı rayonu Qasımlı kəndində vəfat edib. Qasımlı kənd qəbiristanlığında torpağa tapşırılıb.[1]

Allah rəhmət eləsin.

[1] Məlumatları və şəkli təqdim etdi: Kazımov İlqar Söhbət oğlu



**Məmmədov Qasım Museyib oğlu** 1957-ci ilin avqust ayının 3-də Gürcüstanın Qardabani rayonunda düyaya göz açmışdır. Əslən Masallının Qasımlı kəndindəndir. 1964-cü ildə Yeddioymaq kənd tam orta məktəbinin 1-ci sinfinə getmiş və 1974-cü ildə orta təhsilini başa vurmuşdur. 1975-ci ildə hərbi xidmətə çağırılıb. Hərbi xidməti 1977-ci ildə bitirdikdən sonra, Krasnovodsk (indiki Türkmənbaşı) şəhərində 30 il serjant vəzifəsində işləmişdir. 2007-ci ildə təqaüdə çıxmışdır. Daha sonra öz doğma kəndinə qayıtmış və burada yaşamışdır. Azərbaycan və rus dillərini bilirdi.

2012-ci ilin 1 sentyabr tarixində Masallı rayonunun Qasımlı kəndində gözlərini bu dünyaya əbədi yumdu.

Allah rəhmət eləsin, məkanı cənnət olsun.



**Rufullayev Hakim Qara oğlu** 18 noyabr 1960-cı ildə Masallı rayonunun Qasımlı kəndində anadan olub. 1967-1977-ci illərdə Yeddioymaq kənd tam orta məktəbində təhsil almışdır. 1977-1978-ci illərdə hərbi xidmətə getmişdir. Hərbi xidməti bitirdikdən sonra, ali polis akademiyasına daxil olmuş və 1985-ci ildə oranı müvəffəqiyyətlə bitirmişdir. Uzun müddət Rusiyanın Ryazan şəhərində prokuror müavini vəzifəsində işləmişdir. SSRİ dağıldıqdan sonra hüquq məsləhətçisi vəzifəsində çalışmışdır. 9 dekabr 2006-cı ildə vəfat etmişdir.[1]

Allah rəhmət eləsin.

[1] Məlumatları və şəkli təqdim etdi: Qulamov Balabəy Əzim oğlu



**Heydərov Rza Sarıbala oğlu** 28 oktyabr 1969-cu ildə Azərbaycan SSR, Masallı rayonu, Qasımlı kəndində anadan olub. 1977-ci ildə Yeddioymaq kənd orta məktəbinin 1-ci sinifinə gedib. 1987-ci ildə o məktəbi bitirib. 1987-ci ilin noyabrında, hərbi xidmətə gedib. Sovet dövründə, Qazaxıstan SSR, Karakanda şəhərində daxili qoşunlarda, hərbi xidmətdə olub. Vzvod komandirinin müavini vəzifəsində çalışıb. 1989-cu ildə hərbi xidməti başa vuraraq, doğma kəndinə qayıdıb. 1991-ci ildə Masallı rayon polis şöbəsinə qəbul olub. Polisdə işlədiyi dövrdə, Qarabağ müharibəsində iştirak edib. 1992-ci ildə Laçında və Şuşada, 1993-cü ildə Ağdam, Ağdərə, Cəbrayıl və bir çox cəbhələrdə vuruşub. 2010-cu ildə polis orqanından təqaüdə çıxıb. Hal hazırda Qarabağ müharibəsi veteranıdır.

# MEDİA İŞÇİLƏRİ (JURNALİSTLƏR)



**Rzayev Rəsul Müzəffər oğlu** 17 may 1948-ci ildə Azərbaycan SSR, Masallı rayonu, Qasımlı kəndində anadan olub. Azərbaycan Dövlət Pedaqoji Universitetini, Ali Jurnalist Sənətkarlığı institutunu bitirmişdir. İlk təhsilini Yeddioymaq kənd orta məktəbində almışdır.

T.Bayraməlibəyov adına Yeddioymaq kənd orta məktəbində və Hakim Həsənov adına Qasımlı kənd tam orta məktəbində riyaziyyat fənnini tədris etmişdir. 1976-cı ildən dövrü mətbuatda çalışıb. Masallı rayon Komsomol Komitəsində işləyib. "Çağırş", "Yeni həyat", "Rabitə dünyası", "3-cü hədəf" qəzetlərində redaktor müavini, bölgə müxbiri vəzifələrində çalışmışdır. "Şeirlər, poemalar", "Ömrün işıq payı", "Zirvəyə yol" və başqa kitabların müəllifidir. Qızıl

qələm media mükafatçısıdır. 20-dən artıq şeir, hekayə, publisistik kitabın müəllifidir, 50-ə yaxın kitaba redaktorluq edib. Şeirləri dövrü mətbuatda, almanaxlarda çap olunub.[1]

Rəsul Rzayevin qələmə aldığı şeirlərindən birində oxuyuruq:

***- Vaxt tapa bilmədik saç ağartmağa,***
***Vaxt tapa bilmədik qəlb ovutmağa,***
***Vaxt tapa bilmədik əldən tutmağa,***
***Əlli il nədir ki?!***

Bu təvazökarlıq Rəsul müəllim kimi insanların qəribə etirafı olsa da böyük şair Bəxtiyar Vahabzadənin ***"Bircə ondan razıyam ki, özümdən narazıyam"*** meyarında başa düşülməlidir. Ona görə ki, bu insan nəinki bir kəsin qəlbinə dəyməyib, əksinə həmişə ürək sevindirib, əldən tutub, yıxılanı qaldırıb və üstəlik saçlarını da erkən ağardıb – tələbəlik illərində. Gümüşü saçları ona gözəllik bəxş edərdi. Nurani sifəti vardı, həyalı, abırlı, mərifətli, namuslu bir adam idi. Amma, heyf ki, fələk tez bir zamanda Rəsul müəllimi aramızdan apardı, gözümüzü yolda, qapıda qoydu. Bir şair demişkən:



[1] Məlumatları 2016-cı ildə şəxsən özü mənə təqdim edib.

*Möcüzə baş verəydi,*
*Qapıdan sən girəydin...*

İnsan yaşa dolduqca düşünüb-daşınır, papağını qabağına qoyub fikirləşir. Müəllif də özü-özü ilə bu mükaliməsində suallar verərdi: ***Nədir bu dünyanın sənlə qərəzi, Hamıya inanmaq olub mərəzin. Ömrün əlli ili – bu daş-tərəzi... Bəs indi necəsən, Rəsul müəllim?*** Sonrakı bənddə yaratdığı tərəf müqabili onun mənəvi dünyasını heç bir maddiyyatla dəyişmədiyini irad tutur, özünü haqlı sayır, soruşur: ***...Sən deyən olmadı, mən deyən oldu, Bəs indi necəsən, Rəsul müəllim?!***

Hər birimizin yaralı yeri olan Qarabağ mövzusu istər publisistikasının, istərsə də şeirlərinin əsas mövzusuydu Rəsul müəllimin. Ürəyi Qarabağ dərdinə geniş açılmışdı Rəsul müəllimin. ***"Ağla, yanıq Kərəmi"*** şeirində yazırdı ki:

***–Yaxamı gen açdın ki,***
***Dərd yaxanı tanısın.***
***Dərd dərd üçün yaranmış,***
***Dərdli canı tanısın,***
***Ağla, "Yanıq Kərəmi".***

Bəli, sinəsini Qarabağ dərdinə geniş açan müəllif Rəsul Rzayevin Milli Qəhrəmanlar **Elşad Hüseynovun, Səfəralı Məmmədovun, Firdovsi Bağırzadənin, Nurlan Əsgərlinin, Bəyalı Məmmədovun, Aqil Məlikovun, Elşad Əhədovun**, şəhidlər, igidlik və şücaətindən danışan onlarca poemanın, kitabın müəllifi kimi torpaq uğrunda, Azərbaycanın bütövlüyü yolunda canından keçən oğulların ruhuna hələ çox həzin mahnı, şirin layla demişdir əziz Ustad. Qara-

bağda şəhid olmuş Masallı rayonunun Təzəkənd kənd sakini **Rövşən Nəbiyevin** xatirəsinə həsr edilmiş ***"Qarabağ qəlbimə çəkdi qara dağ"*** poemasında döyüş və igidlik səhnələri nə qədər qürurvericidirsə, şəhidin son döyüşü, onu gözləyən el qızının düşüncələri bir o qədər niskillidir, ağrılıdır. Rəsul müəllim yazırdı:

***...Əzizim qönçələnib,***
***Çiçəklər qönçələnib.***
***Sübhün bir xatası var,***
***Üfüqə qan çilənib.***
***Qarabağda qara bax,***
***Bu gülşəndə sara bax.***
***Yenə qan ilə doldu***
***Sinəmdəki yara, bax...***

Rəsul Rzayevin Masallı rayonunun Qasımlı kəndindən Böyük Vətən Müharibəsində şəhid olanlara həsr etdiyi ***"Otuzbirlər"*** poeması vətənpərvərlik hissləri üstündə köklənmişdir. Rəsul müəllimçün doğulduğu, boy atdığı torpaq, addım-addım gəzdiyi yerlər əziz idi, doğma idi, ürəyi isə evlərinin yanından axan Viləş çayı kimi çoşğun idi. O, həmkəndlilərini belə vəsf edirdi: ***Böyüyü 1904-cü ildir, Kiçiyi təzəcə eşqə düşürdü. Hamısı bir ildə – 41-də getdi, Dünyaya sel gəldi... o seldə getdi. Saxlaya bilmədik qarı-boranı, Ünvanladıq Kerçi, Sapun Qarını.***

Rəsul müəllim 1990-cı ildə ***"Peyğəmbər"*** poemasını yazıb, 1996-cı ildə çap etdirib. Əsərdə İslam peyğəmbəri Məhəmmədin (s) ömrünün bəzi məqamları məhəbbətlə tərənnüm olunur. Lal, kar, kor qızının şəfası üçün peyğəmbə-

rə müraciət edən Həbib adlı şəxs onun möcüzələrini görür. Qızı sağalır. Rəsuli Əkrəmdən (s) ikinci möcüzə göstərməsini təvəqqe edir. İkinci möcüzə də Allahın qüdrətilə baş verir: ***...Birdən parçalandı, iki bölündü Göydə ay, peyğəmbər barmaqlarıyla. Sonra parçaları birləşən Qəmər, Parladı, nurlandı bütün varıyla. Həbib diz çökmüşdü haqqın önündə, Həbib dinə gəldi, imana gəldi. Məhəmməd – Allahın haqq peyğəmbəri, Onun əllərindən möcüzə gördü.***

Rəsul Rzayev təqvalı insan idi. Publisistikasından da, şeirlərindən də bu aydın hiss olunurdu. Son vaxtlar səfər etdiyi məkan haqqında – ***"Kərbəla ziyarəti yolu"*** əsəri üzərində işləyirdi. Danışırdı ki, yeni kitabı maraqlı olacaq. Amma, çox heyif ki, yarıda qaldı... Yetmiş bir yaşlı Rəsul Rzayevin yaradıcı bir ömrün hansı məqamını bu kiçik yazıda yerləşdirə bildiksə yenə də gözlərimizdə az göründü. Sadəcə xronologiya, quru rəqəmlərlə düzə bildik ki, fikrimizi oxucuya çatdıraq və onu özümüzlə rəy şəriki eləyək. Rəsul müəllimin həyatı isə neçə-neçə kitab, çoxillik qəzet qovluqlarında, həyatının bütün məqamlarına işıq saçan, yaradıcılığını, istedadını, ailə dəyərlərini qoruyan **Kərbəlayi Şölə** xanımın qayğılarında, beş övladının, 9 nəvəsinin təravətli ömründə, qazandığı uğurlarda yaşayır və yaşayacaq. 2019-cuilədək "Yeni həyat" qəzetində baş redaktor müavini vəzifəsində işləyib. 4 yanvar, 2019-cu ildə dünyaya gəldiyi Masallı rayonunun, Qasımlı kəndində vəfat edib. Qasımlı kənd qəbiristanlığında torpağa tapşırılıb.

Allah rəhmət eləsin.[1]

[1] Əlihüseyn Şükürovun "Unudulmaz Rəsul Rzayevin xatirəsinə" məqaləsindən



**Şükürov Əlihüseyn Məmmədhüseyn oğlu** 19 mart 1960-cı ildə Masallı rayonunun Qasımlı kəndində anadan olmuşdur. Jurnalist Sənətkarlığı İnstitutunu, Ümumittifaq Kənd Təsərrüfatı Akademiyasını (Moskva), Rusiya Federasiyasının Prezidenti yanında Ali İdarəçilik Akademiyasını bitirmişdir. Komsomol, partiya, mətbuat və təsərrüfat orqanlarında işləmişdir. Eyni zamanda Murmansk vilayəti Ümumrusiya Azərbaycan Konqresinin Mətbuat, informasiya və ictimaiyyətlə iş mərkəzinin rəhbəri vəzifəsində çalışıb. Azərbaycan Respublikası Prezidentinin İşlər idarəsinin təsisçiliyi ilə çap olunan gündəlik "Respublika" qəzetinin xüsusi müxbiridir (2000-ci ildən).

Azərbaycan haqqında məqalələri "Kommersant", "Azerbaydjanskiy Konqress" qəzetlərində, televiziya-radio efirlərində səslənir. Rusiya Federasiyasının Murmansk vilayətində çəkilən "Novruz 2008" televiziya filminin ssenari müəllifidir. Bir çox vilayət, rayon və dövlət qurumlarının mükafatlarına layiq bilinmiş, Rusiya Federasiyasının "90 il Komsomolda" xatirə yubiley medalı ilə təltif edilmişdir.

Hazırda “Yeni Həyat” qəzetinin baş redaktoru vəzifəsində çalışır.

# TİBB İŞÇİLƏRİ



**Kərimov Abı Zalı oğlu** 1938-ci il aprel ayının 20-də Masallı rayonunun Qasımlı kəndində anadan olmuşdur. 1944-cü ildə 1-ci sinfə getmiş və 1954 cü ildə orta məktəbi müvəffəqiyyətlə bitirmişdir. 1955-ci ildə Lənkəran Tibb Kollecinə daxil olub, ordu sıralarına çağrılır və 1958-ci ildə ordudan tərxis olunur. 1959-cu ildə Tibb Kollecində təhsilini davam etdirir. 1960-cı ildə Tibb Kollecini yüksək nailiyyətlərlə bitirir. 1961-ci ildə Qasımlı kənd həkim məntəqəsinə müdir təyin olunur və ömrünün axırına kimi orada işləyir. Ömrünü həkimlik sənətinə həsr edən Abı həkim, Qasımlı kəndində böyük nüfuz qazanır. Masallı Rayon mərkəzi xəstəxanasının həkimləri ilə sıx əlaqədə olmuş və onların hörmətini qazanmışdır. Masallının tanınmış həkimləri-cərrah Yunis Cəfərov və travmatoloq-cərrah Həsən Abdullayevlə möhkəm dostluq etmişdir.

2006-cı il yanvar ayının 22-də Qasımlı kəndində vəfat etmişdir. Qasımlı kənd qəbirəstanlığında dəfn olunmuşdur.

Allah rəhmət eləsin!



**Alışanov Güloğlan Əsgər oğlu** 12 iyun 1954-cü ildə Masallı rayonunun Qasımlı kəndində anadan olub. 1 sentyabr, 1961-ci il tarixində Yeddioymaq kənd tam orta məktəbinin 1-ci sinfinə getmiş və 1971-ci ildə orta təhsilini başa vurmuşdur. 1 sentyabr 1971-ci ildə Nəriman Nərimanov adına Tibb universitetinə qəbul olmuş və 1978 ci ildə Universteti bitirmişdir. 1979-cu ilin may ayından Yeddioymaq kənd həkim məntəqəsinin terapevti və müdiri vəzifəsində çalışır. Kənd əməkçilərinə yaxşı xidmət göstərdiyinə görə 1985-ci ildə "Qırmızı aypara" respublika cəmiyyətinin fəxri fərmanını almışdır.[1]

Doktor Güloğlana və onun timsalında olan bütün həkimlərimizə allahdan uzun ömür, cansağlığı arzulayıram.

[1]Məlumatları və şəkli təqdim etdi: Alışanov Ülvi Güloğlan oğlu



**Quliyev Əliqulu Həsən oğlu** 1957-ci ilin may ayının 16-da Masallı rayonunun Qasımlı kəndində dünyaya göz açıb. 1964-cü ildə Yeddioymaq kənd tam orta məktəbinin 1-ci sinfinə getmiş və 1975-ci ildə orta məktəbi müvəffəqiyyətlə bitirmişdir. Həmən ildə Almaniya Respublikasına hərbi xidmətə çağırılıb. Hərbi xidməti 1977-ci ildə bitirdikdən sonra, sənədlərini Azərbaycan tibb universitetinə vermiş və qəbul olunmuşdur. 1983-cü ildə universteti bitirdikdən sonra, həmin ildə Masallı rayonunun Sanitariya-Epidemiologiya xəstəxanasında həkim işləməyə başlamışdır. 1983-cü ildə ailə həyatı qurmuş və bu evlilikdən 2 övladı var. Əliqulu Quliyev 1989-cu ilin dekabr ayının 23-də dünyasını dəyişib. Allah rəhmət eləsin.[1]

[1] Məlumatları və şəkli təqdim etdi: Əhmədov Elçin Əhmədağa oğlu

# YARADICI İNSANLAR



Azərbaycanın ilk teleserial rejissoru **Elçin Təvəkkül oğlu Cahangirli (Məmiyev)** 1966-cı ildə Azərbaycan SSR, Masallı rayonu, Qasımlı kəndində Müəllim ailəsində anadan olub. Orta məktəbi bitirdikdən sonra, incəsənət universitetinin aktyorluq fakültəsinə daxil olub. Tələbəlik illərində gənc aktyor kimi Azərbaycan və dünya dramaturqlarının səhnə əsərlərində müxtəlif rollar oynayıb. 1988-ci ildə ali təhsilini başa vurub. Nizami Gəncəvinin eyniadlı poemasının motivləri əsasında çəkdiyi "Leyli və Məcnun" bədii televiziya filmi ilk rejissorluq işidir. 1990-cı illərdə "iynəsap", "səs", "qorxma atəş aç!" və sair televiziya filmləri ilə tamaşaçıların və sənətşünasların böyük rəğbətini qazanıb.

1992-ci ildə Salam Qədirzadənin eyniadlı hekayəsinin

motivləri əsasında çəkdiyi və xalq artisti Arif Quliyevin baş rolda oynadığı "Bığ" televiziya filmidir. 1994-cü ildə "Sənət" mükafatına layiq görülüb.

Elçin Məmiyevin "Yanmış körpülər", "oyunçu", "Susmuş vicdan" teleserialları onun özünün də aktyor kimi oynadığı samballı rejissorluq işlərindəndir.[1]

İstedadlı rejissor Elçin Məmiyev baş rolların ifaçısı olmaqla yanaşı, bir çox filimlərin ssenari müəllifləri kimi tanınır. 15.05.2017 tarixindən Lider televiziyasında yayımlanan "Qum Saatı" musiqili, əyləncəli, maarifləndirici verilişinin aparıcı və layihə rəhbəridir.

Bu istedadlı rejissora yaradıcıllığında uğurlar arzulayırıq!

---

[1] Masallı, cənnət misallı. Bakı, "Qanun" nəşriyyatı, 2013



**Balayev İlqar Cankişi oğlu** 26 avqust 1967-ci ildə Masallı rayonunun Qasımlı kəndində anadan olub. 1974-cü ildə T.M.Bayraməlibəyov adına Yeddioymaq kənd tam orta məktəbinə gedib. 1984-cü ildə məktəbi bitirib elə həmin ildə Bakıda 84 nömrəli Rəssamlıq peşə məktəbinə daxil olub. 1986-cı ildə peşə məktəbini fərqlənmə diplomu ilə bitirib.

1986-1988-ci illərdə hərbi xidmətdə olub. 1988-ci ildən Masallının Qasımlı kəndində şəxsi emalatxanasında heykəltəraşlıq, rəngkarlıq və ağacoyma üzrə müəllim kimi fəaliyyət göstərir. Hazırladığı tələbələrdən **Bayramov Namiq Hüseyn oğlu, Əzimov Natiq Nicat oğlu, Alışanov Fəxri Fəyyaz oğlu, Qarayev Rahib Arif oğlu, Balayev Nofəl İlqar oğlu, Balayev Müstəqil İlqar oğlu, Balayev Aqşin İlqar oğlunun** adlarını çəkmək olar.[1]

[1] Məlumatları və şəkli təqdim etdi: Qarayev Rahib Arif oğlu



**Qarayev Rahib Arif oğlu** 8 aprel 1986-cı ildə Masallı rayonunun Qasımlı kəndində anadan olmuşdur.

1993-cü ildə Hakim Həsənov adına Qasımlı kənd tam orta məktəbinin 1-ci sinifinə başlamışdır. 2004-cü ildə Masallı rayonunun Yeddioymaq kənd T.M.Bayraməlibəyov adına orta məktəbini bitirmişdir. 2000-2008-ci illərdə Masallı rayonun Qasımlı kəndində İlqar Balayevin emalatxanasında heykəltəraşlıq dərsləri almışdır. Onun bu sahəyə olan marağı hələ uşaqlıq illərindən yaranıb. 2008-ci ildə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının bakalavr pilləsinə daxil olmuş, 2012-ci ildə bakalavr pilləsini bitirib elə həmin ildə magistratura pilləsinə daxil olmuşdur. 2014-cü ildən Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının Heykəltəraşlıq kafedrasında müəllim kimi fəaliyyət göstərir. 2015-ci ildə Azərbaycan Rəssamlar İttifaqının üzvü olmuşdur. 2009-cu ildə "Bir millət, iki dövlət", "Amerika mənim gözümlə", 2011-ci ildə Türkiyədə Memar Sinan universtetində keçirilən simpoziumda fəal iştirak etmiş, 2014-cü ildə "Lermontov", "Əsrin müqaviləsi", həmin ildə keçirilən velosipedçilərə həsr olunmuş sərgidə 2-ci yer mükafatçısı,

2015-ci ildə "Xocalı", "Tolerant Azərbaycan Gənci" adlı sərgidə iştirak etmişdir. 2016-cı ildə Aprel döyüşlərində Şəhid olmuş Samir Kaçayevin memorial abidəsinin müəllifidir. 2017-ci ildə Təzəkənd kənd məktəbi üçün Rövşən Nəbiyevin büstünü hazırlamışdır. 2019-cu ildə Hakim Həsənov adına Qasımlı kənd tam orta məktəbində qoyulan Hakim Həsənovun heykəlinin müəllifidir.

Gənc heykəltəraş Rahib Qarayevə yaradıcılığında uğurlar arzulayıram.



# TÜRKMƏNİSTAN ÇEMPİONU RƏHİM RƏHMANOV

***Həyatını ailəsinə, elmə və idmana bağlayan insan heç zaman məğlub olmaz.***
**Rəhim Rəhmanov**



**Rəhmanov Rəhim Kərim oğlu** 27 oktyabr 1947-ci ildə Azərbaycan SSR, Masallı rayonunun Qasımlı kəndində dünyaya göz açmışdır. Kiçik yaşlarından idmana çox həvəsi olmuş və ilk idman dərslərini Ərkivanlı əməkdar məşqçi **Nadir Ağayevdən** almışdır. 1965-ci ildə hərbi xidmətə Türkmənistan SSR-nin, Krasnovodsk şəhərinə (indiki

Türkmənbaşı) getmişdir. Hərbi xidməti başa vurduqdan sonra 1969-cu ildə Tibb unversitetinə qəbul olmuşdur. Bununla yanaşı idmanla ciddi məşğul olmuş və 1970-ci ildə Türkmənistan SSR-nin çempionu adına layiq görülmüşdür. Bu illər ərzində "SSRİ İdman ustası" medalına, fəxri fərmanlara və digər mükafatlara layiq görülüb.




1975-ci ildə doğma el-obasına qayıtmış və Masallı uşaq gənclər idman məktəbində uzun müddət güləş üzrə məşqçi-müəllim işləmişdir. Güləşçi Rəhim müəllimi döşək üstündə məğlub görən olmayıb. Hər dəfə qələbə ilə tərk edib güləş meydanını. Masallıda onlarla gəncə güləş idmanının sirlərini öyrətmiş və bu sahədə bir çox uğurlara imza atmışdır. Məşqçi işlədiyi on il ərzində dəfələrlə güləş üzrə rayon və respublika birinciliklərinə nümunəvi komanda hazırladığına görə Respublika idman təşkilatlarının diplomları ilə təltif olunmuşdur.



11 yanvar, 2002-ci ildə doğulduğu Masallı rayonunun Qasımlı kəndində dünyasını dəyişib. Allah rəhmət eləsin. 2018-ci ilin oktyabr ayından İkinci Yeddioymaq kənd tam orta məktəbində fəaliyyət göstərən "***Rəhim İdman klubu***" onun adını daşıyır.[1]



[1] Məlumatları və fotoşəkilləri təqdim etdi: Rəhmanov Rəşad Rəhim oğlu

# BÖYÜK VƏTƏN MÜHARİBƏSİ İŞTİRAKÇILARI VƏ İTGİN DÜŞƏNLƏR

Qasımlı kəndindən BVM-də 71 nəfər iştirak etmiş və onlardan 39 nəfəri itgin düşmüşdür. Müharibədən qayıdan 32 nəfərdən isə hazırda sağ qalan yoxdur.

BVM-də iştirak edən Qasımlıların hamısı haqqında bir kitabda ətraflı məlumat vermək mümkün deyil. Ancaq hamıya gün kimi aydındır ki, onlar Vətən uğrunda mərdliklə vuruşmuşlar. Onların bəziləri haqda Rusiya Mərkəzi arxivindən, Masallı rayon hərbi kommisarlığından və yaxınlarından əldə etdiyim məlumatları sizlərə təqdim edirəm.

**Qafarov Abas Muxtar oğlu** 1903-cü ildə Lənkəran qəzasının (indiki Masallı rayonu), Qasımlı kəndində anadan olmuşdur. Hərbi səfərbərliklə əlaqədar 1942-ci ilin noyabr ayında Masallı rayon hərbi komissarlığı tərəfindən orduya çağırılmışdır. 1943-cü ilin mart ayından 1945-ci ilin may ayına qədər 506-cı hərbi baytarlıq loqopeti tərkibində sıravi əsgər kimi Böyük Vətən müharibəsində iştirak etmişdir. Döyüşlərdə fərqləndiyi üçün ***"Döyüş xidmətlərinə görə" (1945), "Berlinin alınmasına görə" (1947), "1941-1945-ci illər BVM-də Almaniya üzərində qələbəyə görə"*** medalları ilə təltif edilmişdir. Abas Qafarov SSRİ Ali Soveti Rəyasət Heyətinin Fərmanına əsasən 1945-ci ilin avqust ayında ordudan tərxis olunmuşdur.[1]

**Kərimov Vəli Mustafa oğlu** 1906-cı ildə Lənkəran qəzasının (indiki Masallı rayonu), Qasımlı kəndində anadan olmuşdur. O, 1942-ci ilin yanvarında hərbi səfərbərliklə

[1] Məlumatlar Masallı rayon hərbi komissarlığından əldə olunmuşdur

əlaqədar olaraq Masallı Rayon Hərbi Komissarlığı tərəfindən ordu sıralarına çağırılmış və 1323-cü atıcı alayın tərkibinə atıcı əsgər olaraq daxil edilmişdir. Bu tərkibdə həmin ilin iyun ayınadək xidmətdə olmuşdur. 1942-ci ilin iyun ayının sonundan 1944-cü ilin oktyabr ayınadək 1122-ci atıcı alayının tərkibində Böyük Vətən müharibəsində döyüşlərdə iştirak etmişdir. Vəli Kərimov 1944-cü ildə şiddətli döyüşlərin birində ağır yaralanır və bununla da Vətən müharibəsində iştirakı onun üçün sona çatır. Həkim müayinəsindən sonra səhhəti ilə əlaqədar olaraq ordudan tərxis olunur. ***"1941-1945-ci illər BVM-də Almaniya üzərində qələbəyə görə"*** və digər döyüş medalları ilə təltif olunmuşdur. Müharibədən evə dönən veteran kənddə "Krupskaya" adına sovxozda əmək fəaliyyətini davam etdirir. Özünün fədakar əməyi ilə qələbənin yaxınlaşdırılması işinə öz payını verir. ***"1941-1945-ci illər BVM-də rəşadətli əməyə görə"*** medalı ilə təltif edilir.[1] Göründüyü kimi Vəli Kərimov həm müharibə, həm də arxa cəbhə veteranı kimi Böyük Vətən müharibəsi tarixinə düşən həmyerlilərimizdəndir.

**Qeyd:** *Hər iki veteranımızın şəkillərini və dünyasını dəyişdikləri tarixi əldə edə bilmədiyimdən, kitabda bu cür qeyd etmişəm.*

---

[1] Məlumatlar Masallı rayon hərbi komissarlığından əldə olunmuşdur



**Ağayev Ağadədə Zahid oğlu** 1912-ci ildə Lənkəran qəzasının (indiki Masallı rayonu), Qasımlı kəndində anadan olmuşdur. Müharibədən əvvəl Mühəndis işləmişdir. 1941-ci ildə Masallı rayon hərbi komissarlığı tərəfindən sovet ordu sıralarına çağırılıb. Böyük Vətən Müharibəsində 314-cü atıcı diviziyanın tərkibində atıcı kimi 1943-cü ilin iyul ayından, qələbəyədək iştirak edib. 1945-ci ildə sol ayaq barmaqlarını itirərək 4 ay müalicə olunub. Müalicə aldıqdan sonra müharibəyə davam edib. ***"İgidliyə görə" (1946), "Leninqradın müdafiəsi uğrunda" (may 1943), "1941-1945-ci illər BVM-də Almaniya üzərində qələbəyə görə" (1946)*** medalları ilə mükafatlandırılıb. SSRİ Ali Soveti RH-nin 25 iyul 1945-ci il Fərmanına əsasən ordudan tərxis olunub.[1]

Müharibədən sonra doğma kəndinə qayıtmış, təsərrüfatla məşğul olmağa başlamışdır. Əməkdə fərqləndiyinə görə ***"1941-1945-ci illər Böyük Vətən müharibəsində rəşadətli əməyə görə", "Əmək veteranı"*** medalları ilə mükafatlandırılmışdır. Masallı rayonu Əmək və müharibə veteranı təşkilatının üzvü olmuşdur. 1990-cı ildə Masallı rayonu Qasımlı kəndində vəfat etmişdir.

Allah rəhmət eləsin.[2]

[1] Rusiya mərkəzi arxivindən əldə etdiyim məlumatlara əsasən

[2] Məlumatları və şəkli təqdim etdi: Hüseynov Haldun Nazim oğlu



Для военнослужащих

1023

518

# АКТ

вручения медали „За оборону Ленинграда"

„22" Октября 1943 г.
(число, месяц)

Отдельная Учебная Стрелковая Рота.
(Наименование части)

В соответствии с пп. 2—3 Положения о медалях „За оборону Ленинграда", „За оборону Одессы", „За оборону Севастополя" и „За оборону Сталинграда", утвержденного Указом Президиума Верховного Совета СССР от 22 декабря 1942 года, мною Командиром Отдельной Учебной стрелковой роты Старшим лейтенантом Падчиным Михаилом Ивановичем от имени Президиума Верховного Совета СССР произведено вручение медалей „За оборону Ленинграда" нижепоименованным участникам обороны г. Ленинграда:

| №№ п/п. | Фамилия, имя, отчество | Звание, должность | Серия и № удостоверения к медали | Примечание |
|---|---|---|---|---|
| 1. | Агаев Агадада Заитович | Красноармеец стрелок | Ш-32961 | |
| 2. | Бархатов Савелий Васильевич | Красноармеец стрелок | Ш-32962 | |
| 3. | Героль Валентин Владимирович | Красноармеец Минометчик | Ш-32963 | |
| 4. | Грехнев Николай Иванович | Красноармеец пулеметчик | Ш-32964 | |
| 5. | Добровольский Петр Блажеевич | Красноармеец Минометчик | Ш-32965 | |
| 6. | Иванчиков Сергей Павлович | Красноармеец стрелок | Ш-32966 | |
| 7. | Качалкин Дмитрий Андреевич | Красноармеец стрелок | Ш-32967 | |

ЛТ УН-9. Зак. 738




**Həsənov Həsən Balış oğlu** 1918-ci ildə Lənkəran qəzasının Qasımlı kəndində anadan olub. Müharibəyə gedənə kimi kolxozda traktorçu və anbar müdürü işləyib. O, 1942-ci ilin aprel ayında Masallı rayonu Hərbi Komissarlığı tərəfindən sovet ordu sıralarına çağrılıb.

Müharibəyə gedəndən 3 ay sonra qolundan ağır yaralanıb və Bakıya Semaşko xəstəxanasına gətirilib. Xəstəxanada müalicə olunub. Həmən vaxt orada öz qızını

40-50 günlüyündə görüb. Yenidən müharibəyə gedib. Kəndimizin müharibə iştirakçısı **Cabbarov İmaşın** verdiyi məlumata görə, Nalçik şəhərində hospitalda olarkən ona demişlər ki, Həsən bir neçə gün əvvəl burada müalicə alıb və yenidən müharibəyə yollanıb. Onu da qeyd etmək istəyirəm ki, Həsənov Həsən zabit rütbəli döyüşçü idi.

1985-ci ildə ailəsinə belə bir məlumat daxil olub ki, Həsən turist kimi Bakıya gəlib. Taksi ilə Neftçala rayonunun Bankə qəsəbəsinə, bacısını axtarmağa gedib. Lakin bacısı başqa yerdə yaşadığından onu tapa bilməyib. O vaxtlar ərazilər mühafizə olunduğuna görə rayona gələ bilməyib. Deyilən məlumatlara görə həmən turistlər Türkiyə və Polşadan gəlmişlər. Bu məlumatları o vaxtkı İnturist mehmanxanasından yaxınları öyrənmişlər. Ailəsi bu məlumatların nə qədər dəqiq olduğunu deyə bilmirlər. Bacıları Mələk Neftçalanın Xolqarabucaq, Qızqayıt isə Bankə qəsəbəsində yaşamışlar.

Ailəsinə hərbi hissədən verilən məlumata görə, itkin düşüb. Allah rəhmət eləsin![1]

[1] Məlumatları təqdim etdi: Həsənov Elxan Barat oğlu.



**Balayev Əsəd Qaraş oğlu** 1921-ci ildə Lənkəran qəzasının (indiki Masallı rayonunun) Qasımlı kəndində anadan olmuşdur. 1941-ci ildə Masallı rayon hərbi komissarlığından sovet ordusu sıralarına çağrılıb. 29 fevral, 1942-ci ildə cənub cəbhəsində yaralanmışdır. 1944-cü ildə yefreytor (ən yaxşı sıravilərə verilən hərbi rütbə) Əsəd Balayev Krımın müdafiəsi uğrunda gedən döyüşlərdə nümunəvi şəkildə iştirakına görə "***Qırmızı Ulduz Ordeni***" ilə təltif edilmişdir. Həmçinin 30 yanvar 1944-cü ildə ***"İgidliyə görə"*** və ***"Döyüş xidmətlərinə görə"*** medalları ilə təltif olunmuşdur.[1]

Müharibədən sonra Krupskaya adına sovxozun yol idarəsində işləyib. 6 aprel 1985-ci ildə I dərəcəli BVM ordeninə layiq görülmüşdür. 6 mart 1997-ci ildə Masallının Qasımlı kəndində vəfat etmişdir. Allah rəhmət eləsin.[2]

[1] Rusiya mərkəzi arxivindən əldə etdiyim məlumatlara əsasən
[2] Məlumatları və şəkli təqdim etdi: Balayev Kamil Əsəd oğlu



НАГРАДНОЙ ЛИСТ

1. Фамилия, имя и отчество – БАЛАЕВ Асад Гаршн-Оглы

2. Воинское звание – Ефрейтор.

3. Должность, часть – сапер-радист 188 роты специального минирования 13 отдельной инженерной Феодосийской бригады специального назначения

Представляется к ордену "КРАСНАЯ ЗВЕЗДА".

4. Год рождения – 1921 5. Национальность – Азербайджанец.

6. Партийность – Кандидат в члены ВКП/б/

7. Участие в гражданской войне, последующих боевых действиях по защите СССР и Отечественной войне /где, когда/ – в гражданской войне не участвовал, в Отечественной войне: Южный фронт с Декабря 1941 г. по Август 1942 г. ЗКФ и СКФ с Августа 1942 г. по Ноябрь 1943 года, Отдельная Приморская Армия с Ноября 1943 года.

8. Имеет ли ранения и контузии – Ранен 29.2.42 года на южном фронте.

9. С какого времени состоит в Красной Армии – с Декабря 1941 года.

10. Каким РВК призван – Масаллинским РВК Азербайджанской ССР.

11. Чем ранее награжден /за какие отличия/ – медалью "ЗА БОЕВЫЕ ЗАСЛУГИ" приказ 13 отд. инж. бригады спецназначения – 02/Н от 20.1.44 года.

12. Постоянный домашний адрес/представляемого к награждению или его семьи/ –

Краткое, конкретное изложение личного боевого подвига или заслуг:

Ефрейтор БАЛАЕВ А.Г. в период боев по очищению Крыма от немецких захватчиков образцово выполнил задания командования по разминированию и за период времени с 24 Апреля по 30 Апреля 1944 года в районе сел. Отузы обезвредил и снял 529 штук мин противника, поставленных в значительной части мин сюрпризами натяжного действия.

За образцовое выполнение заданий командования и проявленные при этом мужество и доблесть достоин награждения орденом

"КРАСНАЯ ЗВЕЗДА"

Командир 188 роты спецминирования капитан

/ДЬЯЧЕНКО/

29 Мая 1944 года.



Все графы заполнить полностью

НАГРАДНОЙ ЛИСТ

1. Фамилия, имя и отчество Б А Л А Е В АСАД ГАРАШ-ОГЛЫ.

2. Звание Ефрейтор 3. Должность, часть Сапер-радист 188 отдельной роты специального минирования, 13 отдельной моторизованной инженерной Феодосийской Краснознаменной бригады РГК

Представляется к награждению орденом "КРАСНАЯ ЗВЕЗДА".

4. Год рождения 1921 5. Национальность Азербайджан. Партийность Член ВКП/б/

7. Участие в гражданской войне, последующих боевых действиях по защите СССР и отечественной войне (где, когда) В Отечественной войне с Декабря 1941 года.

8. Имеет ли ранения и контузии в отечественной войне ранен 29.2.42 года.

9. С какого времени в Красной Армии С I Декабря 1941 года.

10. Каким РВК призван [redacted] Мсаллинским РВК, Азербайджанск. ССР.

11. Чем ранее награжден (за какие отличия) медалью "ЗА БОЕВЫЕ ЗАСЛУГИ" приказ 13 отд.инжбригады спецназначения № 02/н от 30.I.44 г. и медалью "ЗА ОТВАГУ" пр.13 отд.инж.Феодосийской бригады спецназначения № 015/н от 11.5.44 года.

12. Адрес места рождения представляемого к награждению и адрес его семьи

I. Краткое, конкретное изложение личного боевого подвига или заслуг

В Сентябре 1944 года образцово выполнял задания командования по спуску на р.Неман плавучих под минометным огнем противника лично снаряды взрывателями и пустил на воду 25 штук мин.

25.12 и 27.12.44 года на участке 1180 СП в районе города Сувалки на нейтральной полосе под ружейно-пулеметным огнем противника установил 35 мин ПОМЗ-2.

Образцово выполнял задания командования по разминированию городов Инстербург, Пилькаллен, Тильзит и Кенигсберг, где обеспечил досрочное выполнение заданий по проверке обектов на наличие МЗД при отличном качестве работ.

За образцовое выполнение заданий командования достоин награждения орденом "К Р А С Н А Я З В Е З Д А".

КОМАНДИР 188 ОРСМ
КАПИТАН /ЛЫСЕНКО/

"25" Апреля 1945 года.



**Babayev Teymur Teyyub oğlu** 1924-cü ildə Lənkəran qəzasının (indiki Masallı rayonu), Qasımlı kəndində anadan olmuşdur. Orta məktəb illərində çox istedadlı və yaxşı əl qabiliyyəti olduğundan müxtəlif orjinal tüfəng, bıçaq və xəncər düzəldirmiş. Atası **Şamıyev Teyyub Baba oğlu** (1877-1964) Qasımlı kəndinin həm ağsaqqalı, həm də qayğıkeş və yardımsevər insanlarından biri olub. Teyyub kişi Sovetliyin ən mahir ustalarından olub. Hələ adi onun düzəltdiyi araba təkərləri bu gün də öz möhkəmliyini saxlayıb. Həmçinin, Böyük Vətən Müharibəsi dövründə, sahibsiz qalan uşaqlara və qadınlara yardım edib.

Teymur Teyyub oğlu 1942-ci ilin oktyabr ayında Masallı rayon hərbi komissarlığı tərəfindən sovet ordusu sıralarına çağrılıb. 1943-cü ilin iyul ayında itkin düşməsi ilə əlaqədar sənədləri və məktubları, ailəsinə göndərilmişdir.[1] Lakin Teymur Babayeva aid bütün məktub və sənədləri anası qəhərindən məhv etdiyi üçün, harada xidmət etdiyi və hansı döyüşlərdə iştirak etdiyi barədə məlumat yoxdur.

Allah rəhmət eləsin.[2]

[1] Rusiya mərkəzi arxivindən əldə etdiyim məlumatlara əsasən

[2] Məlumatları və şəkli təqdim etdi: Babanlı Elşən Əlinadir oğlu

# MEMORİAL LÖHVƏ

Hakim Həsənov adına Qasımlı kənd tam orta məktəbində memorial löhvə düzəldilmişdir. Mərmər löhvə üzərində Böyük Vətən müharibəsində və Qarabağ müharibəsində gedən döyüşlərdə şəhid olmuş Qasımlıların adları həkk olunub.



## QARABAĞ MÜHARİBƏSİNDƏ ŞƏHİD OLMUŞ İGİDLƏR




**Həsənov Hakim Cəmiyağa oğlu** 1973-cü ilin oktyabrın 25-də Masallı rayonunun Qasımlı kəndində anadan olmuşdur. 1990-cı ildə Yeddioymaq kənd orta məktəbinin, 1991-ci ilin oktyabrında isə Bakı Dənizçilik Məktəbini bitirmişdir. Hakim 1992-ci il iyulun 5-də Azərbaycan Milli Ordusun Qusar batolyonunda hərbi xidmətə başlamışdır. Füzuli bölgəsində ermənilərə qarşı vuruşmuş, sentyabr

ayında Qubadlı-Laçın bölgəsində gedən qızğın döyüşlərdə fəal iştirak etmiş, Muradxanlı, Güləbird, Aşağı Fərəcan, Yuxarı Fərəcan, Mavutulu, Səfiyan, Türklər kəndlərinin erməni quldurlarından təmizlənməsində böyük şücaət göstərmişdir. Hakim Füzuli, Laçın, Qubadlı və Zəngilan bölgələrində onlarla yaralı və meydin döyüş zonasından çıxarılmasına nail olmuşdur. Ona Komandirlər tərəfindən qoçaqlığına və cəsurluğuna görə təşəkkür edilmiş, iki dəfə məzuniyyət verilmişdir. Lakin o döyüş yoldaşlarından ayrılmamış, məzuniyyətə getməkdən imtina etmişdir. Hakim 1993-cü il aprelin 5-də Laçın bölgəsinin Qızartı kəndini erməni qəsbkarlarından azad edərək qəhrəmancasına həlak olmuş, Qasımlı kənd qəbristanlığında dəfn edilmişdir.

Qasımlı kənd orta məktəbinə Hakim Həsənovun adı verilmişdir. Subay idi.

Allah rəhmət eləsin.



ОРУЧОВ НАТИГ ӘЛЈАР ОҒЛУ
(1973—1992)

**Orucov Natiq Əlyar oğlu** 1973-cü ildə Masallı rayonunun Qasımlı kəndində anadan olub. 1991-ci ildə Yeddioymaq kənd məktəbini bitirmiş, orta təhsil aldıqdan sonra ordu sırasına getmiş, 730 nömrəli Gəncə batalyonunda xidmət etmişdir. Həmin vaxt Azərbaycan ilə Ermənistan arasında Qarabağ münaqişəsi başlamışdır. Döyüşlər olduqca gərgin vəziyyət almışdı. Ağdərə rayonunun ona yaxın kəndinin ermənilərdən təmizlənməsində fəal iştirak etmiş və döyüşlərdə zəfər çalmışdır.

1992-ci il sentyabrın 22-də Ağdərə bölgəsində, Çıldıran kəndi uğrunda gedən döyüşdə, səngərdə ağır yaralanır. Ağrı ona aman vermir ki vermir. Axır ki, onu səngərdən Tərtər hospitalına gətirirlər. Həmin qızğın döyüşdən 5 gün sonra

sentyabrın 27-də Natiq işıqlı dünyaya əlvida dedi.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 iyun 1993-cü il tarixli qərarı ilə Natiq Əliyar oğlu Orucovun bir zaman təhsil alıdığı Masallı rayonundakı 1 nömrəli Şıxlar kənd məktəbinə onun adı verilmişdir. Adına məktəbdə guşə yaradılmışdır. Natiq Orucov haqqında ***"Masallının şəhid oğulları"*** kitabında şəkli və haqqında məqalə çapdan çıxmış, mətbuat səhifəsində yazılar dərc edilmişdir. Məzarı Şıxlar kənd qəbiristanlığındadır. Allah rəhmət eləsin!

## ŞƏHİDLƏR

Qoy təzədən nəsillər,
görməsin qara yellər,
qoy bir də oxşamanı,
deməsin qəmli dillər.

Qoy bir də nahaq ölüm,
görməsin bizim ellər,
qoy bir daha boynunu,
bükməsin qızıl güllər.

Ürəyimizdə qalar,
and içirik bu dərdlər,
vətənə qurban olub,
o günahsız igidlər.

Yellər kimi əsərik,
bu dərdlərə dözərik,
bir daha xain əli,

vətənə çıxsa şərik,
inan o murdar əli,
biz kökündən kəsərik!

Dünya belə dünyadı,
şirin, acısı vardı,
Hamı da xəbərdardı.
Bu keşməkeşli dərddən,
hamının var payında,
çəkəcək bu əzabı,
həm qışında, yayında.

Bir gün bu qəmli günü,
yenə xatırlayanda,
beləcə düşünərsiz,
siz günləri sayanda.
həlak oldu igidlər,
axı **YANVAR** ayında.

Ürəyim doludur ki,
bu dərdləri yazıram.
vətənimin yolunda,
mən ölməyə hazıram!

Böyümüşük vətənin,
qucağında, dizində,
heç bir vaxt laqeydlik,
görməmişik üzündə.

Görsək ki vətən yanır,

yanacağıq közündə,
çünki bir məlahət var,
bu xalqımın özündə.

Böyümüşük hər zaman,
biz vətənin gözündə,
gör nə qədər böyüklük,
var bu **VƏTƏN** sözündə.

Bir gün bizə qara yel,
bir dəhşətlə əsəndə,
yandı bizim igidlər,
vətənin tüstüsündə.

Sanki bu dəhşətli gün,
yazılıbdır göylərə,
sanki bu dəhşətli gün,
var lampanın hisində.
Həlak oldu igidlər,
yanvarın iyirmisində.

Divarlaramı yazım?
daşlaramı de yazım?
deyin siz ey insanlar,
hanı o qəmli sazım?
Verin onu əlimə,
bir söz gəlsin dilimə,
deyim ürəyimdəki,
axan qara qanları,
çatdırım qoy elimə,
o şahmar ilanları.

Sazım da həzin-həzin,
öz havasını çalsın,
qoy sazım da özüm tək,
həmişə qəmli olsun.

Elə belə yazmıram,
bu sözləri inanın,
dillə deyə bilmirəm,
halıma siz də yanın.

Ey əhli müsəlmanlar!
qınamayın siz məni,
axı deyə bilmirəm,
mən də sizin deyəni.

Sizdən vuranda eşqdən,
mən fikirə dalıram.
Dəm vuranda qardaşdan,
ürəyimə salıram.
Atadan danışanda,
alışıram, yanıram,
tüstüm çıxmır başımdan,
oddan alovlanıram.
Özümü kiçiltmirəm,
nə də üstün bilmirəm,
lakin mən bu dərdləri,
ürəyimdən silmirəm.[1]

[1] Müəllif: Ümüdvar Rəhmanqızı

# KƏNDİMİZİN XEYRİYYƏÇİLƏRİ

Əziz oxucular! Əvvəlcədən bildirmək istəyirəm ki, bəzi xeyriyyəçilərimiz özləri haqda məlumat vermək istəmədikləri üçün, yalnız haqqlarında məlumat əldə etdiyim xeyriyyəçilərimiz barədə məlumatlar kitabda qeyd olunub.



**Şamıyev Teyyub Baba oğlu** 1877-ci ildə Lənkəran qəzasının Qasımlı kəndində anadan olub. O, Qasımlı kəndinin həm ağsaqqalı, həm də qayğıkeş və yardımsevər insanı olub. Böyük Vətən müharibəsində oğlu Babayev Teymuru itirmişdir. Teyyub kişi Sovetliyin ən mahir ustalarından olub. Hələ adi onun düzəltdiyi araba təkərləri bu gün də öz möhkəmliyini saxlayıb. Həmçinin, Böyük Vətən Müharibəsi dövründə, sahibsiz qalan uşaqlara və qadınlara yardım edib. 1964-cü ildə Masallı rayonunun Qasımlı kəndində vəfat edib.

Allah rəhmət eləsin![1]

[1] Məlumatları və şəkli təqdim etdi: Şamıyev Vidahim İlqar oğlu



**Qulamirzəyev Əziz Abbas oğlu** 17 mart 1940-cı ildə Azərbaycan SSR, Masallı rayonu, Qasımlı kəndində anadan olub. 1949-1959-cu illərdə orta məktəbi bitirib. 1964-cü ildə Gəncə şəhər kənd təsərrüfatı texnikomunun mühasib şöbəsini bitirib. Qasımlı kənd ara yolunun təmiri, əsaslı bərpası, Qasımlı kənd məscidinin yenididən qurulmasında həm maddi və mənəvi dəstək olaraq, həm də təşkilatçı kimi yaxından iştirak etmişdir. Eyni zamanda digər xeyriyyə işlərində iştirak etmişdir. 2011-ci ildə Masallı rayonunun Qasımlı kəndində vəfat etmişdir.

Allah rəhmət eləsin.[1]

[1] Məlumatları və şəkli təqdim etdi: Qulamirzəyev Əbdül Əziz oğlu

# DİGƏR ALİ TƏHSİLLİLƏR



**Muxtarov Ağalar Nəhmət oğlu** 1933-cü ildə Azərbaycan SSR, Masallı rayonunun Qasımlı kəndində dünyaya gəlmişdir.

Orta təhsilini başa vurduqdan sonra zona üzrə sahə baytar həkimi işləmişdir. Ali partiya məktəbini bitirmişdir. Daha sonra sovxozda, rayonda partiya üzrə rəhbər vəzifələrdə çalışmışdır. Eyni zamanda düyə yetişdirmə kompleksinin direktoru vəzifəsində çalışmışdır.

13 fevral 1990-cı ildə dünyasını dəyişmişdir.[1]

Allah rəhmət eləsin.

[1] Məlumatları və şəkli təqdim etdi: Muxtarov Əhməd Ağabala oğlu



**Alışanov Ayoğlan Əsgər oğlu** 1957-ci ildə Masallı rayonunun Qasımlı kəndində anadan olub. 1964-cü ildə Yeddioymaq kənd tam orta məktəbinin 1-ci sinfinə getmiş və 1974-cü ildə həmən məktəbi bitirmişdir. 1975-ci ildən 1977-ci ilə qədər hərbi xidmətdə olmuşdur. 1 sentyabr 1979-cu ildə Ç.İldırım adına Azərbaycan Politexnik İnstitutunun radiotexnika fakültəsinə qəbul olmuş və 1984-cü ildə həmin institutu müvəffəqiyyətlə bitirmişdir. 1984-cü ildə Bakı şəhərində yerləşən "Elektron hesablayıcı maşınlar" zavodunda baş mühəndis vəzifəsində işləmişdir. 1988-ci ildən Bakıda fəaliyyət göstərən telekommunikasiya qovşağında şöbə müdiri kimi işləyib. Hal hazırda təqaüdçüdür.

Allah uzun ömür, cansağlığı versin.[1]

[1] Məlumatları və şəkli təqdim etdi: Alışanov Ülvi Güloğlan oğlu



**Muxtarov Əhməd Ağabala oğlu** 1963-cü ildə Masallı rayonunun Qasımlı kəndində anadan olub. 1970-1980-ci illərdə Yeddioymaq kənd tam orta məktəbində təhsil almışdır. Daha sonra Bakı Dənizçilik məktəbini, Rusiyada yerləşən Balıq Sənayesi və Təsərrüfatı İnstitutunu bitirmişdir.

1990-cı ildən Azərbalıq Dövlət Konsernində mütəxəssis, şöbə rəisi işləmişdir. 1995-ci ildən Rabitə və Elektroradionaviqasiya idarəsinin rəisi, 2010-cu ildən Respublika Həmkarlar komitəsində işləyir. 1 oğlu və 1 qızı var.

Mən də Əhməd əmiyə cansağlığı və işlərində müvəffəqiyyətlər arzulayıram.



**Şükürov Xalıq Heybət oğlu** 20 iyun 1976-cı ildə Masallı rayonunun Qasımlı kəndində anadan olmuşdur. 1993-1997-ci illərdə Bakı Dövlət universitetinin hüquq fakültəsini bitirib. 1997-1998-ci ilədək hərbi xidmətini Xüsusi Təyinatlı bölüyündə başa vurmuş və ordu sıralarından tərxis olmuşdur. 1998-ci ildən 1999-cu ilədək Bakı "Bəxt" firmasında hüquq məsləhətçisi vəzifəsində çalışmışdır. 2000-2001-ci illərdə Ədliyyə Nazirliyi Cəzaların İcrası Baş İdarəsinin Xüsusi şöbəsində çalışmışdır. 1999-cu ildə Bakı Dövlət Universitetinin “Beynəlxalq Hüquq və Beynəlxalq Münasibətlər ” fakültəsinə daxil olub, 2003-cü ildə oranı bitirmişdir. 2003-cü ildə yeniden Müdafiə Nazirli-

yində zabit olaraq hərbi xidmətə qayıtmış və 10 oktyabr 2009-cuilədək xidmət etmiş, ehtiyatda olan zabitdir. 1993-cü ildən idmanın "BUDO" döyüş növü ilə məşğul olmuş və hal hazırda 3-cü dan qara kəmər ustasıdır.

2006-cı ildə Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun "Hüquq" şöbəsinə dissertant kimi daxil olmuş, 2010-cu ildə "Beynəlxalq Terrorçuluq və Azərbaycan Respublikasının Cinayət Qanunvericiliyi" mövzusunda müdafiə etmiş, hüquq üzrə fəlsəfə doktorudur. 2010-cu ildən Bakı Dövlət Universitetinin hüquq kafedrasında dosent olaraq çalışır. "Qızıl Qələm" mükafatçısı və Şairdir. "Küsən qəlbin sorağında" və "Yalan Dünya" adlı iki şeirlər kitabının müəllifidir.

Ailəlidir üç övladı var.

# KƏNDİMİZİN UZUNÖMÜRLÜLƏRİ[1]

Rufullayev Əsgər Ağarəhim oğlu (1868-1987) – **119 yaş**
Həsənova Şirin Əlihəsən qızı (1847-1957) – **110 yaş**
Nuriyeva Ağabəyim Museyib qızı (1906-2014) – **108 yaş**
Əlihəsənov Nəhmət Muxtar oğlu (1889-1994) – **105 yaş**
Kərimova Gülər Qubad qızı (1919-2020) – **101 yaş**
Allahverdiyeva Səriyyə Rzali qızı (1900-2000) – **100 yaş**
Səmədova Fatma Mustafa qızı (1906-2006) – **100 yaş**
Əzimova Ruqiyyə Ədil qızı (1903-1998) – **95 yaş**
Rəhimova Nənəxanım Əsgər qızı (1926-2019) – **93 yaş**
Babayev Təyyar Teyyub oğlu (1927) – **93 yaş**
Kərimov Rüstəm Manaf oğlu (1891-1981) – **90 yaş**
Müzəffər Əmir oğlu (1904-1994) – **90 yaş**
Nuriyeva Xumar Paşa qızı (1905-1995) – **90 yaş**
Abdullayev Kərim Rəhman oğlu (1906-1996) – **90 yaş**

[1] Tərtibçidən: Uzunömürlülük 90 yaşdan yuxarı hesab edilir.

# NƏTİCƏ

***Doğulduğun torpağı, boya-başa çatdığın vətəni sevmirsənsə, sən o yurdun övladı deyilsən!***

Əziz və hörmətli Qasımlı kəndinin sakinləri!

Doğulub boya-başa çatdığım Qasımlı kəndi haqda bu kitabı hazırlamaqda məqsədim odur ki, gələcək nəsillər öz tarixini, kimliyini, vətən uğrunda qəhrəmancasına vuruşmuş şəhidlərimizi daha yaxından tanısınlar. Çünki onlar bizlər üçün örnəkdirlər, əbədiyyətə aparan yoldurlar. Tarixin qoynuna sığınmış bu insanların zəkası həmişə işıqlı, vətənə, torpağa bağlı olmuşlar. Babalarımız hərbdə igid, dərddə dost, hiddətdə isə həmişə kamillik, müdriklik göstərmişlər. Ümid edirəm ki, bu kitab oxucularımıza öz tarixi yaddaşını bərpa etməklə, kimin kim olduğunu obyektiv şəkildə gələcək nəsillərə çatdırmağa imkan verəcəkdir.

Buyurun oxuyun və öz qiymətinizi verin!

Hörmətlə: **Fəyyazlı Mehdi Afiq oğlu**

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

1. Novruz Novruzov. Masallı. Bakı. 1990.
2. Musarza Mirzəyev. Mənim Masallım. Bakı, 1991.
3. Musarza Mirzəyev, Şahzadə Ağayev. Masallı toponimləri. Bakı, 1992.
4. Musarza Mirzəyev. Talış toponimlərinin qısa izahlı lüğəti. Bakı, 1993.
5. Budaq Budaqov, Nadir Məmmədov. Azərbaycan Respublikasının Lənkəran regionu toponimlərinin izahlı lüğəti. Bakı, 2008.
6. Tofiq İslamov, "Yeddioymaq". Bakı, "Adiloğlu" nəşriyyatı. 2010, 152 səh.
7. Lənkəran qəzasının ərazi soy kitabı. 1905. 1326 səh.
8. Xorasan soy kitabı. Xorasan – 1782. 365-372 səh.
9. Azərbaycan Respublikasının inzibati-ərazi bölgüsü. B., 2013.
10. Azərbaycan Respublikası abidələrinin kadastrı. Bakı, 2001.
11. Nəcəf alimləri. Axund Mirdaməd Ağa Ocağı Masallı. Bakı, "Uniprint" nəşriyyatı, 2014
12. Masallı, cənnət misallı. Bakı, "Qanun" nəşriyyatı. 2013
13. Aydın Şükürov. "Masallının təhsil fədailəri" 2-ci kitab.

# KİTABIN İÇİNDƏKİLƏR

Tərtibçidən....................................................................3
Qasımlının tarixi ...........................................................6
Coğrafi mövqeyi. Ərazi və əhalisi ..........................8
Qasımlı toponimi ..........................................................8
Mənim Qasımlı kəndim ..........................................10
İqtisadiyyatı ...............................................................16
Sosial obyektləri .......................................................17
Qasımlı bələdiyyəsi .................................................18
Qəbiristanlıqlar..........................................................21
Qasımlı kənd məscidi.................................................24
Qasımlının din adamları ..........................................28
Müəllimlərimiz ..........................................................42
Hakim Həsənov adına Qasımlı kənd
tam orta məktəbi .......................................................66
Elm adamları...............................................................70
Polis işçiləri ...............................................................80
Media işçiləri ...............................................................86
Tibb işçiləri.................................................................92
Yaradıcı insanlar........................................................95
Böyük Vətən müharibəsi iştirakçıları və
itgin düşənlər ...........................................................103
Qarabağ müharibəsində şəhid olan igidlər .............114
Kəndimizin xeyriyyəçiləri .......................................121
Digər ali təhsillilər ..................................................123
Kəndimizin uzunömürlüləri.....................................128
Nəticə........................................................................129
İstifadə edilmiş ədəbiyyat.......................................130

**MEHDİ FƏYYAZLI**
**(Fəyyazlı Mehdi Afiq oğlu)**

**QASIMLI KƏNDİ**
**Bakı, "Xerox", 2020.**

Kompüter və dizayn: **Niftəli NİFTƏLİYEV**
Redaktor: **İldırım ŞÜKÜRZADƏ**
Texniki redaktor: **Araz YAQUBOĞLU**
Korrektor: **Samir ƏSGƏROV**

Yığılmağa verilmiş: **27.04.2020**
Çapa imzalanmış: **08.05.2020**
Şərti çap vərəqi: **8**
Sifariş: **№1**
Kağız formatı: **60x84, 1/16**
Tiraj: 50 ədəd

Kitab **"Xerox"**-da
çap olunmuşdur.

*Ünvan: Azərbaycan, Bakı, Z.Xəlilov küç.*